**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# FƏLSƏFİ TƏFƏKKÜRÜN STRUKTURUNDA BƏDİİLİYİN YERİ VƏ ROLU

İxtisas: 7201.01 – Bilik fəlsəfəsi

Elm sahəsi: **Fəlsəfə**

İddiaçı: **Sədaqət Məmmədhüseyn qızı Əliyeva**

Fəlsəfə elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2022**

Dissertasiya işi Azərbaycan Universitetinin "İctimai elmlər" kafedrasında yerinə yetirilmişdir.

Elmi məsləhətçi: AMEA- nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor
**Səlahəddin Sədrəddin oğlu Xəlilov**

Rəsmi opponentlər: Fəlsəfə elmləri doktoru, professor
**Əziz Başir oğlu Məmmədov**

Fəlsəfə elmləri doktoru, professor
**Vilayət İsmayıl oğlu İsmayılov**

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor
**Tehran Əlişan oğlu Mustafayev**

Fəlsəfə elmləri doktoru, professor
**Əli Seyidabbas oğlu Abasov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən BED 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: fəlsəfə elmlər doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: fəlsəfə elmlər doktoru
**Füzuli Məhəmməd oğlu Qurbanov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Bəşəriyyət durmadan inkişaf edir. Elm və texnikanın inkişafı, elmi biliklərin dinamikası insanı daha çox düşünməyə, daha çox axtarmağa sövq edir. İnsanların maddi təminatının yetərlilik dərəcəsi özü - özlüyündə kifayət qədər ciddi mövzudur, lakin insanın həyatı təkcə onun maddi təminatından, əqli - təfəkkür imkanlarının əhatə dairəsindən deyil, həm də mənəvi – ruhi əlaqələrinin səviyyəsindən və keyfiyyətindən asılıdır. Daim təkmilləşməyə can atan insanın elmi potensialının həcminin artması, ona təfəkkürün bütün sahələrində özünü reallaşdırmağa imkan verir. Analitik və sintetik təfəkkürün məhsulu olan universal sistemlərin yaranmasının və müxtəlif bilik sahələrdə tətbiq edilən elmi modelləşdirmənin ən son nailiyyətlərinin fonunda meydana çıxan müasir fəlsəfi-konseptual yanaşmalar, tədqiqata cəlb edilən "Fəlsəfi təfəkkürün strukturunda bədiiliyin yeri və rolu" mövzusunu elmi, ideoloji, fəlsəfi cəhətdən yeni kontekstdə araşdırmağa zəmin yaradır. Tədqiqatın mövzusunu aktuallaşdıran mühüm cəhət məhz bu nöqtədən qaynaqlanır.

Tədqiqat işində fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeninə xüsusi təfəkkür modeli kimi yanaşılır, onun şüur aktı kimi immanent və transsedent cəhətləri araşdırılır.

Kant qeyd edirdi ki, aposteriori– təcrübi mühakimələrin heç biri analitik məzmuna malik olmur, yəni onlarda predmetin obyekti və subyekti ayırd edilmir, ümumiləşdirmə yalnız sintetik təfəkkürlə aparılır. Belə ümumiləşdirmə kumulyativ xarakter daşıyır. Analitik mühakimələrdə isə predmetin obyekti və subyekti müəyyən olunur, buna görə də hər cür analitik mühakimə predikatdır və müəyyən hökmə qərar verə bilir. İ.Kantın noumen, "özündə şey" («вещи в себе»), yaxud "özlüyündə şey" ideyası, bədiilik fenomeninin izahında təfəkkürün abstrakt modellərini, həm sırf elmi- məntiqi cəhətdən, həm də fəlsəfi təfəkkür baxımından əsaslandırır. Fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeni modelləşmə prosesində şüurun bütün daxili potensial imkanlarını və təfəkkürün intensionallığını nəzərə alır. Fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeninin tədqiqi, bir tərəfdən, İ.Kantın "məqsədsiz

məqsədyönlülük” və “faydalılığa yönəlişlik” tezislərinin mahiyyətinə daha dərindən nüfuz etməyə şərait yaradır, digər tərəfdən isə həmin tezislərin qarşıya qoyulan tədqiqat işi üçün konkret elmi-fəlsəfi istiqamət kimi aktuallaşmasına şərait yaradır.

Modelyaratma yaradıcılıq prosesinin əsasını təşkil edir. V.Tomson (Kelvin) özünün məşhur “Baltimor mühazirələri”ndə yazırdı ki, hadisəni anlamaq onun mexaniki modelinin qurulması deməkdir, lakin bu heç də elmi-metodoloji yenilik deyil, əksinə yaradıcılığın uzun əsrlik təcrübəsinin ümumiləşdirilməsidir.

İnsan təfəkkürü elə qurulmuşdur ki, obyektiv gerçəkliyi bədiiləşdirmədən, qavranılan mövcudluğun bütün parametrlərinə müdaxilə etmədən, onun həcmini, ölçüsünü dəyişmədən, zatən abstraksiyadan kənarda heç bir ideal obraz yarana bilməz. İdeal obrazın yaranması prosesi, modelyaratmanın tədqiqində, dərketmənin mahiyyətində duran əsas məsələdir. Mövzunu aktuallaşdıran daha bir cəhət, dünyanın maddi və texnogen inkişafı fonunda təfəkkür modellərinin öz bədii strukturunu itirməsi ilə bağlıdır. Təfəkkür sahələrində, yaradıcı düşüncələrdə destrukturalizasiya prosesi müşahidə olunur. Destrukturalizasiya, təkcə kütləvi mədəniyyətdə deyil, hər cür təfəkkür sahəsində harmonik yanaşmalardan kənara çıxmalarla müşayiət olunur. Yaradıcı təfəkkürdə, sənət əsərlərində bədiiliyin itirilməsi və idealizasiyanın azalması ilə dünya öz harmonik məzmununu dəyişməkdə və tədricən xaosmotik məzmuna yaxınlaşmaqdadır. Lakin bütün bu proseslər şüurun daxili mahiyyətindəki idealizasiya aktını pozmağa qadir deyildir, təfəkkür özünün daxili genotekstual mahiyyətində idealizasiyanı və modelləşdirməni qoruyub saxlayır.

Tədqiqat işində fəlsəfi diskursun əsas inkişaf sahələrinə, onun müasir anlayışlarına, kateqoriyalarına xüsusi diqqət ayrılması və modelləşmənin dillə bağlı olması faktı, mövzunu koqnoliqvistik tədqiqatlar yaxınlaşdırmaqla onu daha da aktuallaşdırır. Fəlsəfi təfəkkürün strukturunda bədiiliyin yeri və rolunun tədqiqində dil modifikasiyalarına xüsusi önəm verilmişdir və müəllif mental sahələrdə bədiilik fenomeninin ifadə etmək üçün tədqiqat işində ilk dəfə “auraanalitika” anlayışından istifadə etmişdir. Qeyd olunan məsələlər ciddi analiz və sintez tələb etdiyindən, müəllif elmi və

fəlsəfi təfəkkürün konseptual əsaslarını tədqiq etməyə çalışmış və həmin əsas üzərində öz fikirlərini meydana qoymuşdur.

**Mövzunun işlənmə dərəcəsi.** Fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeni idrakı akt olaraq, şüur prosesinin özünün təbii-daxili yönəlişliyi üzərində qərarlaşır, elmi cəhətdən təfəkkürün rasional və irrasional tərəfləri ilə bağlanır. Tədqiqat işində bu idrakı aktın məhz həmin kauzal əlaqə momentləri əsas götürülmüşdür. Əsərdə bu əlaqənin məntiqi-rasional[1] tərəfləri ilə yanaşı, həm də irrasional tərəfləri diqqətə çatdırılır.

Təfəkkür modelləri şüurun ümumiləşdirmə qabiliyyətinin nəticəsi olaraq meydana çıxır. Bu haqda ilkin fikirlər XX əsrin 50-60–cı illərində N.Viner və A.Rozenblyutun “Elmdə modellərin rolu” məqaləsindən sonra yayılmağa başladı. Sonralar təfəkkür modellərindən istifadə edilməsi elmin digər sahələrinə tətbiq olunduqca, həmin sahələrin inkişafına böyük təkan verdi. Hətta bu proses ictimai şüur sahələrində sosial-demoqrafik dəyişikliklərin riyazi modelləşdirilməsində, tarixi təkamül qanunları üçün “kliodinamika”nın yaradılmasında (P.V.Turçin, 2003) və digər elmlərdə tətbiq olunan müxtəlif koqnitiv modellərdə özünü göstərdi. Riyazi modelləşmə sahəsində M.Vartofskinin, A.Rozenblyutun, N.Vinerin, D.Eyşbinin, L.Vitgenşteynin, A.Tyurinqin, psixoloji sahədə V.Vundun, U.Ceymsin, S.L.Rubinşteynin, L.S. Vıqotskinin, J.Piajenin və digərlərinin elmi təfəkkür modelləri tətbiq olunmağa başladı. Bu təfəkkür modellərinin hər biri tətbiq olunduğu sahənin elmi nəticələrini özündə ümumiləşdirən bütöv bir sistem kimi meydana çıxırdı. V.A.Ştoff (1915-1984) “Modelləşdirmə və fəlsəfə” adlı əsərində modelyaratmanın elmi-fəlsəfi mahiyyətini açaraq yazırdı ki, modellər hansı sahənin abstrakt məzmununu ifadə etməsindən asılı olmayaraq, həmişə bir qədər idealizasiya kimi çıxış edir və elmi həqiqəti sadələşdirir. V.A.Ştoff hər cür modeldə təfəkkürün rasional və irrasional tərəflərindən istifadə olunduğunu göstərərək qeyd edirdi ki, bədiilik ideallaşdıra bilmək qabiliyyətinin

---

[1] Ə.B.Məmmədov, V.İ.İsmayılov, F.Ə.Məmmədov. Rasionallıq və qeyri-rasionallıq Bakı, “Elm”, 2010, 880 s.

universal cəhətləri ilə xarakterikdir. Təfəkkür modeli insan şüurunda obyektiv gerçəkliyin real mənzərəsinin ideal ifadəsidir.

İctimai şüur sahələrinin modelləşdirilməsi bu gün də aktuallığını qoruyub saxlayır. L.A.Zaqs "Bədii şüur"[2] adlı əsərində bədiiliyi ideal bir sistemin yaradılması kimi təsvir edir və bədii şüurun yaranmasını yaradıcılıq prosesi kimi, təfəkkürün daxili stixiyasının ifadəsi kimi əsaslandırır. Bədiilik fenomeninin tədqiqi S.Xəlilovun yaradıcılığında xüsusi yer tutur. Müəllif bu mövzuya müxtəlif əsərlərində dəfələrlə qayıdaraq, təfəkkürün struktural quruluşu ilə onun bədii məzmunu arasındakı ideal əlaqəni xüsusi olaraq qeyd edir. S.Xəlilovun[3] yaradıcılığında fəlsəfi düşüncələr məntiqi olanla qeyri-məntiqi olanların kəsişmə nöqtəsində yerləşir. S.Xəlilov fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomenini təkcə nəzəri cəhətdən deyil, həm də özünün konkret bir elmi-təfəkkür modeli üzərində izah edir. Müəllifin yaradıcılığında "Əbu Turxanın "fikir fəzası" təlimi adlanan təfəkkür modeli abstrakt bir fəza modeli kimi qoyulur və bu fəza modelində analitik təfəkkür qanunları ilə irrasional düşüncənin xüsusi əlaqə momentləri ümumiləşdirilir. S.Xəlilov bu fəza modelində təfəkkür aktı olaraq kosmik məkanı fenomenoloji zamanla birləşdirir və fikir fəzasında rasional və irrasional düşüncənin konturlarını göstərir. "Əbu Turxanın "fikir fəzası" təlimi adlanan təfəkkür modelində faktla və hadisə elə bir ideal nöqtədə birləşdirilir ki, şüur prosesinin metaforik səviyyəsində fikir fəzası sıradan bir ideyanı, yaxud ani, mexaniki bir düşüncə axınını deyil, ideal bir düşüncə modelini, fərqli fəlsəfi fenomeni ifadə edir.

Gerçəklikdən alınan, idealizə edilmiş mücərrəd məzmunlu fikir, artıq şüura ilkin mərhələdən reduksiya olunmuş informasiyanın məhsulu kimi daxil olur. Başqa sözlə desək, informasiyaların ölçüsü onların estetik məzmuna malik olduğunu sübut edir. Lakin məsələnin əsl mahiyyəti, şüur prosesində ikinci

---

[2] Закс, Л.А. Художественная сознание. Свердловск: Уральский университет, 1990, 212 с.

[3] Xəlilov S.S. Əbu Turxanın təlimində zaman və məkanın eyniyyəti // Fəlsəfə və sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal / 5-6. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2008, s. 176 – 187.

mərhələdə gedən reduksiya zamanı nə baş verməsindədir. İlkin variantdakı reduksiyadan fərqli olaraq, ikinci reduksiya prosesinin harada və necə getməsi, təfəkkürün forma və məzmununun daxili-bioloji və genetik mahiyyəti bu gün təkcə fəlsəfənin deyil, təfəkkür və şüur prosesi ilə bağlı olan digər bütün elmlərin tədqiqat sahəsidir, müasir elmi araşdırmalar həmin sahəyə yönəlmişdir. Neyrobioloqların fikrinə görə gerçəklik təfəkkürə "autopoezis"[4] hadisəsi kimi qatılır, lakin məsələnin mürəkkəbləşdirən cəhət ikinci dəfə, təkrar reduksiya zamanı verbalizasiyanın necə getməsi, dilin bu verbalizasiyadakı[5] rolu, şüurdakı ideallaşdırma və bədiilik fenomeninin necə alınmasıdır. Müasir fəlsəfi yanaşmalarda ən mühüm cəhət ondan ibarətdir ki, insan dünyanı necə qəbul edir və bu qəbuletmənin mexanizmi[6] hansı forma və məzmunda həyata keçir, həmçinin elmi nəzəriyyə ilə praktiki şüurun kəsişmə nöqtələrinin tapılması gündəmdədir. Müasir koqnitivist filosofları[7] ən çox maraqlandıran "kvaliya" ilə bağlı tədqiqatları da məhz bu məsələlərin həllinə yönəlmişdir. Təfəkkür aktının ikinci dəfə təkrar modelləşməsinin mahiyyəti və məzmunu hələ tədqiqat obyekti olaraq qalırsa da, amma bu proses təfəkkürün məntiqi, bədii, elmi, hüquqi tərəflərinin yeni məzmununun yaranmasını, şüurun ideal əlaqələrinin korrelyativliyi ilə bağlamağı istisna etmir. Dissertasiya işində tədqiqata cəlb edilmiş antik dünya fəlsəfəsindən problemə

---

[4] Матурана У.Р., Варела Ф.Х. Древо познания биологические корни человеческого понимания. М.: Прогресс- Традиция, 2001, 224 с .

[5] Кулиев Г.Г. Метафора и научное познание. Баку, 1987.

[6] Мирзаджанзаде А.Х. О пути в XXI век. Баку: ИПП «ОСКАР», 2001,

[7] Мерло-Понти М. Феноменология восприятия. СПб.: Ювента, 1999, 603 с.

Деннет Д. Онтологическая проблема сознания / пер. с англ. А. Л. Блинова // Аналитическая философия: Становление и развитие (онтология) / сост. А. Ф. Грязнов. — М.: ДИК «Прогресс-Традиция», 1998. — С. 361—375.

Чалмерс Дэвид. Сознающий ум: В поисках фундаментальной теории. Пер. с англ. М.: УРСС: Книжный дом «ЛИБРОКОМ», 2013. — 512 с. (Философия сознания.).

Пенроуз Р. Новый ум короля. О компьютерах, мышлении и законах физики = The Emperor`s New Mind. Concerning Computers, Minds and The Laws of Physics / Перевод с англ. под общ. ред. В. О. Малышенко. — 4-е изд. — М.: УРСС, ЛКИ, 2011. — 402 с. — (Синергетика: от прошлого к будущему). — ISBN 978-5-382-01266-7.

dair yanaşmalar, Qərb təfəkkür tərzində şüur aktı ilə bağlı tədqiqatlar, o cümlədən, İ.Kantın "xalis zəka" ilə bağlı fikirləri, Hegelin estetik və ictimai düşüncə sahəsinə aid tədqiqatları, rasional fikrin elmi məntiq kimi formalaşması ideyasının nəticələri, habelə təfəkkürün bədiilik fenomeni ilə bağlı əldə olunan fikirləri əsərdə ümumiləşdirilərək istifadə olunmuşdur. Mövzuya aid müasir tədqiqatçılardan L.S.Vıqotskinin, Q.D.Qaçevin, M.Buberin, L.A.Zaqsın, V.P.Branskinin, A.N.Malyukovun, M.S.Kaqanın, O.A.Krivçunun, İ A.Y.d Zisin, V.İ.Tyupanın təfəkkür aktlarının müxtəlifliyi haqqında elmi-fəlsəfi tədqiqatları, problemə sistemli yanaşma tərzi daxildir, eyni zamanda. A.Riçardsın, B.Kroçenin, R.Kollinqvudun, Ç.Morrisin, Çarlz Pirsin, Marburq məktəbinin ən görkəmli nümayəndəsi olan E.Kassirerin, S.Langerin analitik estetikası, həmçinin semantik estetikanın müasir loqos təlimi dissertasiya işində araşdırılmışdır.

Bu sahədə əldə edilən nəticələrin ümumiləşdirilməsində Azərbaycan ictimai fikrində H.Hüseynovun, M.Ə.Məmmədovun, Məsud Əlioğlunun, Y.V.Qarayevin, S.Xəlilovun, F.Qurbanovun[8], A.Abasovun[9], A.Əsədovanın[10] və M.Q.Qocayevin bədiilik fenomeninə fəlsəfi, tarixi, fenomenoloji, elmi - məntiqi baxışları, habelə müxtəlif elmi- fəlsəfi konsepsiyaları böyük rol oynamışdır. Xüsusən, müasir tədqiqatçılardan L.A.Zaqs öz əsərində bədii şüurun motivasiyasının bir çox cəhətlərini izah etmişdir. V.İ.Tyupa isə bədiilik fenomenini bədii diskurs kimi tədqiqata cəlb etmiş və öz tədqiqatlarından belə bir nəticə hasil etmişdir ki, bədii məzmun mövcud deyildirsə, ümumiyyətlə, varlığın hər cür mövcudluq imkanı aradan qalxır. Bədiilik fenomeninə yeni elmi yanaşmaların içərisində Y.A.Filippevin "Estetik informasiyaların siqnalları" və V.V.Feşenkonun "Yaradıcılığın semiotikası və yaradıcılığın linqvistikası" adlı əsərləri xüsusi qeyd olunmalıdır.

---

[8] Qurbanov F. Elmə sinergetik baxış / - Bakı: Elm, -2005, - 364 s.

[9] Абасов А.С. Проблема истории, теории и методологии познания./ - Баку: Энинесил, - 2001, - 284 с;

[10] Əsədova A. Avropa ədəbiyyatşünaslığı və Azərbaycan ədəbi-nəzəri fikri. Bakı: Elm, 2006, 274 s.

Bədiilik fenomeninə estetikadan, gözəlliyə münasibətdən[11] doğan yanaşma nə dərəcədə əsaslı və düzgün olsa da, elmin sürətlə inkişafı bədiilik fenomenini təfəkkürün koqnitiv məzmunu fonunda yenidən təhlil etməyə və bədiiliyi fəlsəfi təfəkkürün strukturundakı ideal bir model kimi görməyə əsas verir.

Azərbaycanda fəlsəfi təfəkkürün strukturunda bədiilik mövzusu, bütövlükdə təfəkkürün strukturundakı bədiilik fenomeni kimi yox, ayrı - ayrı əsərlərin bədii səviyyəsi kimi, bədii metod kimi ədəbiyyatşünaslıq çərçivəsində işlənmişdir. Bədiilik fəlsəfi təfəkkür aktı kimi tədqiqata cəlb olunmamışdır, ona konseptual şəkildə yanaşılmamış, bədiilik yalnız konkret bir mətnin çərçivəsi dairəsində izah edilmişdir. Fəlsəfi tədqiqatlarda isə bədiilik, yalnız gözəlliyin estetik çaları kimi verilmişdir.

Fəlsəfi təfəkkürün Azərbaycan şifahi xalq ədəbiyyatının qaynaqlarında izlənməsi və yazılı ədəbiyyatın nəzəri məsələlərinin tədqiqində bədiilikdən ədəbi metod kimi, bir məziyyət olaraq ayrı-ayrı müəlliflərin yaradıcılığını səciyyələndirmək üçün istifadə edilməsi faktı, özü-özlüyündə bədiilik fenomeninin daha yaxşı anlaşılmasına və onun struktural məzmununun dərk edilməsinə kömək göstərmişdir.

Məsələn, A.M.Dadaşzadənin "C.Cabbarlının yaradıcılıq yolu"(1956), "L.N.Tolstoy"(1960), "Anton Pavloviç Çexov"(1960), "Səməd Vurğunun dramaturgiyası"(1964), M.H.Rəfilinin "M.F.Axundov" (1939), "A.S.Puşkin" (1941), "A.P.Çexov"(1944), "Ədəbiyyat nəzəriyyəsinə giriş" (1958), Ə.M.Mirəhmədovun "M.F.Axundov" (1953), "Abdulla Şaiq"(1956), "Sabir" (1958), "Məhəmməd Hadi" (1962 və 1981), "Azərbaycan Molla Nəsrəddini" (1980), habelə 30-40-cı illərdə isə Ə.Nəzminin, H.Zeynallının, M.Hüseynin, Mir Cəlalın, M.İbrahimovun, H. M.Araslının və digər ədəbiyyatşünasların ədəbi və nəzəri fikirləri, həmçinin müasir ədəbiyyatın aktual nəzəri məsələlərinin izahında K.Talıbzadə, O.Həsənov, Y.Qarayev, Y.Seyidov, T.Mustafayev[12]

---

[11] Adil Əsədov. Gözəlliyin fəlsəfəsi. B.: Nurlan, 2005. – 500 s.

[12] T.Əlişanoğlu XX əsr Azərbaycan nəsrinin poetikası Bakı: Elm, 2006.- 312 s.

və başqa tanınmış ədəbiyyatşünas alimlərin yaradıcılığı buna misal göstərilə bilər.

Müasir dünyada Şərq və Qərb təfəkkürü üçün ümumi olan elmi əsasların yaradılması və dünyanın aktual elmi və fəlsəfi problemlərinə qoşulmaq, onların həlli yollarını axtarıb tapmaqla bağlı tədqiqlərdə[13] əsər, müəllifin vacib araşdırmalarının nəticəsi kimi meydana çıxmışdır.

Fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeni gerçəkliyin şüurda əks olunan forma və məzmununun mürəkkəb problematikasını əhatə edir. Təfəkkürün mürəkkəb strukturu və onun apologetikası bu problemi bütün dövrlər üçün aktuallaşdırır. Fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeni ilə bağlı zaman, məkan və şəxsiyyət baxımından tarixən çox müxtəlif yanaşmalar meydana çıxmışdır, hələ bu gün də bir – birindən tamamilə fərqli ideyaların yaranması və onların bəzən bir-birini tamamilə təkzib etməsi diqqəti cəlb edir. Antik dövr fəlsəfəsində Platonun "Teatet", "Menon" dialoqlarında, Sokratın "mayevtika" təlimində bədiilik fenomeni ilkin ideyanın yaranması və onun daxili harmoniya kimi xarakterizə olunmuşdur. Platonun və Aristotelin əsərlərində mövcudluq maddi ilə mənəvinin, ideyalar dünyası ilə maddi dünyanın vəhdətində axtarılırdı və hər iki sahə estetik kateqoriyalarla səciyyələnirdi. Lakin Platonun dialoqlarında "harmoniya", "ölçü", "simmetriya" anlayışları, iki əks qütbün birləşməsindən meydana çıxan harmoniya kimi deyil, bir - birindən ayrı olan qütbləri öz mahiyyətində qoruyub saxlayan harmonik orta, ümumi məkan kimi ifadə olunurdu ki, bu da kosmik harmoniyanın əzəli və əbədi qanunlarından xəbər verirdi. Klassik dövrdə bədiilik fenomeni estetik dəyərlərin mücərrəd məzmununda əks olunmağa başladı. Ümumiyyətlə, bütün antik dövr müəlliflərinin əsərlərində bədiilik fenomeni "kosmik nizam", "ritmik hərəkət", "gözəllik" kimi ideal anlayışların fonunda verilirdi. Spektisizm, daha sonra stoisizm təlimində, daosizmdə bu yanaşmalar yeni formada təsbit olunsa da, ilkin məzmununu qoruyub saxladı.

---

[13] Азимова Р.Д. Человековедение – наука. XXI века (в поисках смыслообразующих констант синтеза), Saarbrücken 2016, 120 с.

Renessans dövründə bədiilik fenomeni antik bədii təsəvvürdən öz individuallığı, zamana münasibəti və xətti məzmunu ilə seçilirdi. Renessans dövrünün gözəllik ideyası, zamanca bu günü və indini ifadə edən ədəbi-bədii düşüncə idi və öz dövrünün əyani obrazları üzərində qurulurdu. Umberto Ekonun yaradıcılığında bədiilik ortodoksal sistemlilik kimi qəbul olunmuşdu və müəllifin düşüncələrində bədiilik fenomeni tomizmin ilahi nurlanma ideyasının meydana çıxması və hissiyyatın yeni məzmunu ilə ifadə olundu. Umberto Eko orta əsrlərin mediyevist fəlsəfi təlimlərində patristik və sxolastik düşüncə sahələrinin yüksəliş dövrünü Foma Akvinskinin adı ilə bağlayırdı. İlahi vəhy, xüsusi məqamda verilən informasiya, insanın yeganə xilas yolu kimi göstərilirdi.

Şərq düşüncəsində[14] bədiilik N.Tusinin və Şihabəddin Yəhya Sührəvərdinin, Nəzzamın əsərlərində sxolastik məntiq çevrəsində izah olunurdu. Nəzzamın əsərlərində hərəkətin daxili struktural nizamı atomar məzmunda təqdim olunsa da, Şərq atomizmi elmi şəkildə reallaşmadı. Şərq fəlsəfəsinin işraqilik təlimində bədiilik harmoniya kimi, harmoniya isə nisbət, müvazinət olaraq məntiq çərçivəsində yerləşdirilirdi, lakin Şərq elminin analitik davamı öz varisliyini qoruyub saxlaya bilmədi.

Yeni dövr fəlsəfəsində elmi biliklərin inkişafı ilə əlaqədar olaraq, bədiilik fenomeninə yanaşma tərzi dəyişməyə başladı. Q.F. Leybnitsin məntiqi fikirləri, fəlsəfi düşüncələri, kainatı qurmaq istədiyi monadalar – sonsuz kiçik haqqındakı ideyaları, dünyəvi harmoniya haqqındakı təlimi klassik alman fəlsəfəsinə böyük təsir göstərdi. Klassik alman fəlsəfəsində varlığın universal modellərini işləyən İ.Kant, F.Şiller,V.İ.Şellinq, Q.V.F. Hegel bədiilik fenomenini gözəllik anlayışı ilə müqayisədə izah edir və onu mütləq ideyanın hissi təzahürü olaraq görürdülər. Kant incəsənətdəki gözəlliyi, təsəvvürdəki gözəllik kimi analiz edir və bədiiliyi ilə mövcudluğun daxili keyfiyyəti sayaraq yazırdı ki, hər şey kəskin şəkildə doğrudur və özündə zövqə qarşı nəyə isə malikdir. Hegel isə bədiilik fenomenində forma və məzmunun mütabiqliyini deyil, hissə ilə tamın münasibətini, kiçik ideyanın böyük ideala

[14] Bünyadzadə K.Y. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı: Çaşıoğlu, 2010, 154 s.

uyğunluğunu əsas götürürdü. Bu da bədiilik fenomenində təkcə forma və məzmunun, hissə ilə tamın deyil, həm də ideya ilə idealın daxili müvazinətini görməyə imkan verirdi. Gözəlliyi abstrakt vahid kimi xarakterizə edən Hegel, bədiiliyin konkret məzmununun idealda necə əks olunduğunu vurğulayırdı və yazırdı ki, ideya bədii məzmunda forma alır və sonra ideala çevrilir. Hegelin bu fikri bizə bədiilik fenomeninə təfəkkür modeli kimi yanaşmağa və bədiilik fenomenini elmi- təfəkkür kontekstində tədqiq etməyə əsas verir. Lakin elmi biliklərin inkişafında sistemli yanaşma tərzinə qədər olan dövrdə fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeni hələ bir təfəkkür modeli kimi analiz edilə bilməzdi.

Yeni dövrdə varlığa yeni münasibət, klassik alman fəlsəfəsinin dahilərini yetişdirdi. Z.Freydin, K.Yunqun analitik-psixoloji təlimləri yarandı, Fridrix Nitsşenin, K.Koffkanın, F.Kafkanın, J.P.Sartrın fəlsəfi düşüncələrində bədiilik fenomeni varlığa münasibətin xüsusi mənəvi – ruhi meyarlarını müəyyən etdi. Rus ictimai fikrində böyük söz sahibləri olan bir sıra sənətkarlar fəlsəfi təfəkkürün strukturundakı bədiiliyi diqqət mərkəzinə gətirdilər, lakin onların demək olar ki, əksəriyyəti bədiilik fenomenini yalnız estetik bir kateqoriya, yaxud ədəbi metod kimi izah edirdilər. Elmi biliklərin ləng inkişafı və sistemli yanaşma tərzinin olmamağına baxmayaraq, rus ictimai - ədəbi fikrində bədiilik fenomeni müxtəlif səpkilərdə işlənmiş və onun metodoloji əsasları hazırlanmışdı. N.A.Berdyayev, Q.Q. Şpet, N. Q. Çernışevski, L.N.Tolstoy, M. Qorki, F.A Losev, E.Panovski, Y.M.Lotman, İ.A. Brodski, K.Q.Paustovski, M.M.Baxtin, D.A.Leontyev, L.S.Vıqotski, S.L.Rubinşteyn, L.İ.Şestov, daha sonralar isə İ.İ.Qarin, E.Y. Basin, Y.B.Borev, V.Y.Propp, M. N.Epşteyn, D.D.Blaqa, A.Belıy, M.K.Mamardaşvili, B.F.Asmus, A.Hauzer, S.S.Averintsev, L.S.Vıqotski, Q.D.Qaçev, M.Buber, L.A.Zaqs, V.P.Branski, A.N.Malyukov, M.S.Kaqan, O.A.Krivçun, İ A.Y.Zis, V.İ.Tyupa fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeninin müxtəlif aspektlərini tədqiq etdilər. Yuri Lotman bədiiliyi "mexaniki modelləşdirmə ilə ölçülə bilməyən sistem" adlandırırdı. K.Q.Paustovski bədiilik fenomenini poetik fikir kimi analiz edir və insan biliyinin bütün sahələrindəki sonsuz poeziya

elementlərinin varlığını göstərirdi. M.M.Baxtin isə yazırdı ki, insan yalnız yaradıcılıqda bütöv insandır.

Fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeni klassik hermenevtik yanaşmalarda, bədii mətnə münasibətdə F.D.E.Şleyermaher,V.Diltey, M.Haydegger, X.Q.Qadamerin əsərlərində işlənmişdir. X.Q.Qadamer "Gözəlliyin aktuallığı", "Fəlsəfə ilə ədəbiyyat" adlı tədqiqat işlərində bədiilik fenomenindən elmi metod kimi istifadə olunan təfəkkür sahələrinin üzərində dayanırdı.

Qərbdə geniş yayılmış "semantik estetika" adlanan xüsusi təmayülün inkişafı, fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeninin izahında özünəməxsus yer tutur. Bütün estetik münasibətlərin məzmununda bədiiliyin olması və dilin refleksiya aparatı kimi bədiiliyə xidmət etməsi bir sıra Qərb və Amerika tədqiqatçılarının əsərlərində vurğulanır[15]. XX əsrin son onilliklərində ABŞ - da geniş yayılmış semantik estetikanın müxtəlif cərəyanları, əslində fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeninin müxtəlif istiqamətlərini tədqiqat obyektinə çevirdi. Fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeni bir idrakı akt olaraq yalnız dilə şamil edildikdə, yaradıcılıq stilinin fəlsəfi mahiyyəti və koqnitiv linqvistikanın idrakla bağlı olan sualları cavabsız qalır. Semantik estetika fəlsəfəni dilə, bədii stilə deyil, dolayısı ilə konsept yaradıcılığına bağlayır. Hər bir konsept fərdi təfəkkür modeli kimi qəbul edilsə də, daha fundamental anlayışlar vardır. Yəni dilin bədii məzmunu təfəkkür modelinin riyazi – məntiqi və fəlsəfi mahiyyətini aça bilmir. A.F. Losevin (1893-1988) riyaziyyatı xaosun strukturlaşması faktı kimi izah edərkən məsələni düzgün şəkildə qoyurdu. Müəllif göstərirdi ki, məntiqi təfəkkür, elmi təfəkkür kimi modelləşmədə konkret strukturla çıxış edirsə, demək, hər bir struktur, eyni zamanda, təfəkkürün bədii modelidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi insan təfəkkürünün struktural xüsusiyyətlərinin yeni məzmununu müəyyən etmək və təfəkkürün gerçəkliyi bədiiləşdirə bilmək qabiliyyətinin mahiyyətini aşkara çıxarmaq və bədii təfəkkür

---

[15] Quliyev Q. XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları. Bakı: 2012, 344 s.

modelinin universal cəhətlərini açmaqdır. Dissertasiya işində bədiilik fenomenini təfəkkürün elmi modeli kimi təsbit etmək, bədiilik fenomeninə yeni elmi məzmunlu münasibəti formalaşdırmaq əsas məqsəd olaraq qarşıya qoyulmuşdur. Tədqiqatın məqsədi aşağıdakı vəzifələrini müəyyən etdi:

– bədiiliyin təfəkkür modeli kimi elmi – fəlsəfi məzmununu açmaq;
– bədiilik fenomeninin elmi metod olaraq kateqorial genezisini axtarmaq;
– bədiilik kateqoriyasının fəlsəfi mahiyyətdəki əsas aspektlərini müəyyənləşdirmək;
– fəlsəfi təfəkkürün bir idrakı akt kimi bədii məzmunda reallaşması imkanlarını göstərmək;
– idrakın tarixiliyini, məntiqiliyini və mücərrədliyini əsaslandırmaq;
– məntiqi və bədii təfəkkürün elmi modellərinin təsnifatını vermək;
– diskursiv və spekulyativ fəlsəfə ilə bədii təfəkkürün sərhədlərini müəyyənləşdirmək;
– fəlsəfi təfəkkürdəki transformasiyaları - strukturalizmdən postmodernizmə keçidi əsaslandırmaq;
– persepsiyanın təfəkkür mexanizmini izah etmək;
– fəlsəfi təfəkkürün metrik və topoloji kəsişmə sahələrini təyin etmək;
– postmodernizmdə ideyanın inkarının və bədiiliyin itirilməsinin nəticələrini göstərmək;
– kütləviləşən mədəniyyəti strukturalizmin böhranı kimi xarakterizə etmək;
– sinkretik və sintetik təfəkkürdə bədiiliyin yerini müəyyənləşdirmək;
– sürətli və sürəkli fikrin poeziya və fəlsəfədə ifadəsini göstərmək;
– müasir Azərbaycan fəlsəfi fikrində bədiilik fenomeninə münasibəti aşkarlamaq.

**Tədqiqatın obyekti və predmeti:**

Dissertasiya işinin obyekti elm və cəmiyyətin qarşılıqlı əlaqəsi kontekstində meydana çıxan qanunauyğunluqlar, insan-dünya, insan-insan münasibətlərinin fonunda aparılan tədqiqatlar və cəmiyyətin inkişaf dinamikasını təmin edən elmi yanaşmaların nəticələridir.Fəlsəfi təfəkkürün struktural mahiyyətinin araşdırılması, modelləşdirmənin elmi və fəlsəfi məzmununu müəyyənləşdirilməsi, təfəkkürdəki ideal əlaqələrin meydana çıxarılması dissertasiya işinin predmetidir. Tədqiqatda fəlsəfi təfəkkürün diskursiv sahələri geniş profildə diqqətdən keçirilmiş, tədqiqatın predmeti elmi şəkildə əsaslandırılmış və metodologiyası işlənib hazırlanmışdır.

**Tədqiqatın elmi yeniliyi:**

1. Təfəkkürdəki bədiilik fenomeni şüurun immanent xüsusiyyətləri ilə bağlılığı və insanın obyektiv gerçəkliyi təfəkkür modelləri, proobrazlar vasitəsilə qavraması faktının önə çəkilməsi, modelləşdirmənin ideallaşdırma, hüdudlanma obyekti kimi qoyulması və araşdırılması.

2. Elmi nəzəriyyələrdə mövcud olan yanaşmalar əsasında fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeni təkcə dünyanın elmi mənzərəsinin sadə təsviri deyil, həm də təfəkkürün genezisindəki ontoloji məzmununda simvollaşdırma, strukturlaşma ardıcıllığı kimi göstərilmişdir. Bu yanaşmalar müəllifin orijinal konsepsiyalarında fəlsəfi təfəkkürün qanunauyğunluqlarında əhatə olunan ümumi və təkcə münasibətlərində öz həllini tapmışdır.

3. Sözün simvolizmini onu abstraktlığı ilə əlaqələndirilir və tədqiqat işində formanın simvolizmi məzmunun metaforik ifadəsi kimi qoyulur. Bədiilik fenomeni universal, abstrakt təfəkkür modeli kimi irəli sürülür və ideal şüur aktı kimi onun təfəkkürdə oynadığı rol konkret olaraq əks–əlaqə kontekstində araşdırılmış və onların əsas cəhətlərinin müqayisəsi aparılmışdır.

4. Təfəkkür modellərində dünyanın elmi mənzərəsinin, həm də onun bədii mənzərəsi olması faktı əsaslandırılır və bu fikir modelqurmadakı ideallaşma prosesinin ümumi cəhətləri ilə əlaqədə təsdiq olunur.

5. Təfəkkür modellərində informasiyanın strukturlaşması və müxtəlif əqli səviyyələrdə bədiilik fenomeninin verbalizasiya aktından necə keçməsi və təfəkkürdə nizama, düzümə ideal məzmun verilməsinin başlıca istiqamətləri müəyyən edilmişdir.
6. Bədiilik fenomeninin koqnolinqvistik xüsusiyyətlərinin təhlilində dil təfəkkür modeli, söz "atomar fakt" olaraq götürülür, sözün mental sahəsinin mövcudluğu və sözün aurasının mahiyyəti sözün çəkisi kontekstində təhlil edilir. İlk dəfə "auroanalitika" anlayışı sözün şüurdakı oyanıqlı psixi sahəsi kimi izah edilir və bu sahəsinin uzun müddət açıq qalması ilə sözün təsir qüvvəsinin qoruyub saxlanmasının birbaşa əlaqəsinin olması sübut edilir.
7. Deskriptiv strukturalizmin sinxronluq paradiqmasının mövcudluğu ortaq dil modelinin yaranmasını təmin edir, lakin müəllif dilin korrelyativliyini bədiilik fenomeni və sözün aurası ilə bağlayır. Sözün işlək dil modeli ilə yanaşı, idrakın yüksək səviyyəsində dilin təfəkkür modelinin yaranması, təfəkkürün təkcə sözün özü ilə deyil, onun aurası ilə əlaqəsinin mövcudluğunu təsdiq edir. Fəlsəfi təfəkkürün strukturundakı bədiiliyin rolu və yerini müəyyən etmək, dialektik inkişaf qanunlarından kənara çıxmır, lakin bədiilik fenomeni, varlığın universal və daim yeniləşən təfəkkür qanunları ilə müəyyənləşməsini istisna etmir. Təfəkkürün koqnitiv qanunlarla özünü realizə etməsi, dilin struktural mahiyyəti ilə qarşılıqlı əlaqəsi və təsiri sübuta yetirilmişdir.

**Dissertasiya işinin nəzəri-metodoloji əsası** kimi dialektik metod; struktur-funksional analiz metodu; sistemli yanaşma metodu; kontent - analiz metodu tətbiq olunmuş, məntiqi-metodoloji üsullardan istifadə olunmuş, tarixi - fəlsəfi və koqnitiv analizlər aparılmışdır. Həmçinin düşüncə modelləri arasında korrelyativ və kauzal əlaqələr yaradılmışdır. Dissertasiya işi analitik və sintetik təfəkkürün mahiyyətinə, abstrakt və konkretin ümumi və fərqli cəhətlərinin əsaslandırılmasına, tarixiliyin və məntiqiliyin vahidliyi prinsipinə əsaslanır.

Tədqiqatın nəzəri və **praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, dissertasiya materialları və tədqiqat işi, habelə dissertasiyadan alınan nəticələr, təfəkkürün struktural mahiyyəti haqqındakı yanaşmalar, elmi ümumiləşdirmələr fəlsəfi

biliyə ontoloji və koqnitiv əlavədir. Tədqiqatın praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, dissertasiya materiallarından və tədqiqat işindən alınan nəticələr, fəlsəfi biliyin baza kurslarında "fəlsəfi təfəkkürün strukturunda bədiiliyin rolu və yeri" mövzusunun tədrisində və tədqiqində konkret şəkildə istifadə edilə bilər. "Fəlsəfi təfəkkürün strukturunda bədiiliyin rolu və yeri", nəinki fəlsəfə kurslarında təfəkkürün strukturunun tədqiqinə əlavə edilə bilər, hətta yeni bir tədqiqat sahəsi kimi digər elmi nəticələrə qatıla bilər. Dissertasiya işinin daha bir praktiki əhəmiyyəti ondan ibarətdir ki, məhz tədqiqat işinin sayəsində, elmi və bədii modelləşmədən alınan nəticələrin ümumiləşdirilməsi, tədqiqatın yeni elmi işlərə fərqli bir bilik sahəsi kimi əlavə olunması faktını mümkün edir. Eyni zamanda, dissertasiya işindən "Ontologiya və təfəkkür nəzəriyyəsi" kurslarının tədrisi prosesində istifadə oluna bilər, həm də auraanalitika adlı yeni bir elmi sahənin nəzəri əsası qoyula bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas hissələri bir sıra konfrans materiallarında təqdim olunmuşdur. İctimai və fəlsəfi fikir tariximizin antologiyası: Heydər Hüseynov - 100. İctimai və fəlsəfi fikir tariximizin antologiyası, (Bakı, 2008); Моральные феномены Насреддина Туси и Рихарда Вагнера. (Мысли в литературном и философском контекстах). Религия-наука-общество: проблемы и перспективы взаимодействия. Материалы международной научно - практической конференции (Пенза-Липецк, 2011) Семей, Pietas. Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş Tədqiqatçıların Ümumrespublika elmi konfransında. Tezislər. [Bakı, 2010]; 1st İnternational scientifik conference "Eurorean Applied Sciences:modern approaches in scientific researches" 17-19 th December 2012, Conference papers, Volume 2, Stuttgart, Germany Auroanalytical view of the artistic background of the word (Аурoаналистический взгляд на художественный фон слова)463 стр.92-94.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat:** Dissertasiyanın materialları Azərbaycan Universitetinin "İctimai elmlər" kafedrasının iclaslarında müzakirə olunmuşdur.

Dissertasiyanın əsas hissələri problemi əhatə edən iki əsərdə və elmi məqalələrdə öz əksini tapmışdır.

**İşin strukturu.** Dissertasiyanın strukturunu onun məqsədi və qarşısına qoyduğu əsas vəzifələr müəyyən edir. Elmi tədqiqat işi giriş, iyirmi paraqraf əsasında yazılmış beş fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın predmeti və obyekti, məqsədi, qarşıya qoyulan vəzifələri, metodları müəyyənləşdirilir, tədqiqatın elmi yeniliyi, işin nəzəri və praktiki əhəmiyyəti, əsas müddəaların aprobasiyası göstərilmiş və müdafiəyə çıxarılan müddəalar irəli sürülmüşdür.

**Birinci fəsil – "**Fəlsəfi təfəkkürün strukturuna dair" adlanır və fəsil dörd bölmədən ibarətdir.

**Birinci bölmədə "**İdrakın tarixiliyi, məntiqiliyi və mücərrədliyi"ndən bəhs olunur.

Təfəkkür idrakı aktlardan biridir, həm də ən mühüm olanıdır. Hissi idrak kimi məntiqi idrak da, təfəkkürlə bağlıdır. İ.Kant təfəkkürü analitik və sintetik kateqoriyalara bölüb onları nəzəri və təcrübi biliklərlə əsaslandırdı. İ.Kantın yaradıcılığında ən fundamental anlayış, hər cür təfəkkür aktının əsasında duran bilik hesab olunurdu. Lakin təfəkkür aktı yalnız bilikdən ibarət deyildir, o mürəkkəb məntiqi- idrakı aktların hamısını özündə birləşdirdiyi kimi, hissi idrakı aktları da, öz mövcudluğunda reallaşdırır.

Təfəkkürün təkcə koqnitiv tərəflərini deyil, həm də canlı dərk etmə, sezgi ilə («осознание») bağlı olan əlaqə sahələrini izah etmək üçün təfəkkürün üç əsas cəhəti üzərində dayanmaq lazımdır:

a) təfəkkürün tarixiliyi;
b) təfəkkürün məntiqiliyi;
c) təfəkkürün mücərrədliyi;

Təfəkkürün tarixiliyi və məntiqiliyi ilk dəfə Hegel tərəfindən irəli sürülmüşdür. Hegel idrakın tarixiliyini izah edərkən göstərir ki, idrakın tarixiliyi onun bütün təfərrüatlarını təkrar etmir, onun yalnız

əsas cəhətlərini abstraksiyada bərpa edir. Q.Q.Şpet (1879–1937) idrakın tarixiliyi ilə məntiqiliyinin vəhdəti faktını təfəkkürün bütün sahələri üçün önəmli bir faktor olaraq izah edirdi. Fəlsəfi təfəkkürün tarixiliyi ilə məntiqiliyinin vəhdəti, həm də onun mücərrədliyinin əsasında durur. R.Kollinqvud fəlsəfi təfəkkürün tarixiliyindən ətraflı şəkildə bəhs edirdi və göstərirdi ki, təfəkkürün mücərrədliyi ilə tarixiliyi vəhdət təşkil edir. Təfəkkürün tarixiliyi, məntiqiliyi və mücərrədliyi təfəkkür modellərində özünü göstərir. Xüsusən, dilin inkişaf dinamikasını izlədikdə təfəkkürün hər üç pilləsində dilin yeni bir məzmununun meydana çıxdığını müşahidə etmək olar.

**İkinci bölmə** – "Fəlsəfi təfəkkürün spesifikası" adlanır. Bu bölmədə idrak əsas təfəkkür aktı kimi izah olunur.

İdrak təfəkkürün ən ali pilləsidir. İdrak nəzəriyyəsinin mərkəzi problemi dünyanın dərki məsələsidir. Təfəkkür digər idrakı proseslərdən ən çox ümumiləşdirə bilən, daha çox abstraksiya edəndir. D.Yum və İ.Kantın aqnostisizmində idrak nəzəriyyəsi məntiqi təfəkkürdən kənara çıxıb hissi mahiyyətlə birləşir, lakin bununla da, fəlsəfi təfəkkürün spesifikası mütləq izahını tapa bilmir. Kanta görə yalnız "xalis əql" və "praktik əql"dən danışmaq mümkündür. Kanta qədərki bütün filosoflar yalnız predmetin ifadə etdiyi məzmunu analiz edirdilər və düşünürdülər ki, predmetin mövcudluğu onun təfəkkür formalarından abstraksiya olunmuş xüsusi məzmunundan başqa bir şey deyildir. İlk dəfə Kant təfəkkürə ağlın predmet kimi yanaşdı və bu əsas üzərində həqiqətin ölçülərini və formalarını müəyyən etdi. Yeni dövrün empirizmi və rasionalizmi, məhz İ.Kantın düşüncələrində ilk dəfə təfəkkürlə varlığın vəhdətini meydana qoydu. Təfəkkür aktının spekulyativ məzmununda duyğu və qavrayışın analoji kontekstdə bağlılığı təfəkkürün spesifikasının ikinci cəhətini - onun xronotop məzmununu müəyyən edir, yəni təfəkkür aktı yalnız zaman və məkanda, yalnız zaman və məkan üçün mövcuddur. Təfəkkürün varlığa yönələn tərəfi onun hissi məzmuna malik olan senbilizasiya ilə əlaqələnən xüsusiyyətlərini özündə əks etdirir. Fəlsəfi təfəkkür analitik, sintetik və sinkretik məzmuna malikdir və hər bir fəlsəfi təfəkkür modeli idrakın bu xüsusiyyətlərini özündə reallaşdırır. Təfəkkürün spesifikası haqqında nə isə demək, əslində şüurla bağlı

mürəkkəb suallara yenidən cavab axtarmaqdır. Dünyanı qavramağın mümkünlüyü, qavradığımız dünyanın həqiqətə nə dərəcədə uyğunluğu, "obyektiv reallıq" dediyimiz dünyanın nə dərəcədə obyektiv olması məsələsi, əsrlər boyu filosof və analitiklərin tədqiqat sahələrini əhatə etmişdir. Çarlz Pirs qeyd edirdi ki, hər bir dilin özünəməxsusluğu təfəkkürün differensasiyasından sonra başlanır, buna görə də müxtəlif dillərin fərqli estetik məzmunu mövcuddur.

Rayner Rilke (1875–1926) fəlsəfənin dillə əlaqəsini yalnız səslə bağlayırdı və deyirdi ki, "biz yalnız səsik". Əslində dilin səs xarakteristikası ilə paralel şəkildə, həm də sözün ətrafındakı mental sahədə eksses gedir. Sözün səs xarakteristikasını və onun fəlsəfi mahiyyətini daha yaxşı başa düşmək üçün sözə L.Vitgenşteynin irəli sürdüyü təfəkkür modeli kimi baxmaq lazımdır, çünki L.Vitgenşteynin yaradıcılığında söz "atomar fakt"dır. Sözü "atomar fakt" kimi təsəvvür etmək üçün onun maddə kimi kristal qəfəsə malik olduğunu düşünmək lazımdır. Maddələrin kristal qəfəsi olduğu kimi sözün də təfəkkür modeli vardır. Kimyəvi tərkibləri bir-birinə yaxın olan iki və ya bir neçə maddə analoji kristal qəfəsə malik olduğu kimi, sözün izomorfizmləri də, eyni sözün müxtəlif məna daşıyıcılarını meydana çıxarır. Demək, izomorfizmdə dəyişikliyə uğrayan, təkcə sözün səs xarakteristikası, fikrin mənası deyil, həm də sözün tutduğu məkan, sözün ətrafındakı auradır. Hər bir sözün ətrafında sözdən sonra bir müddət fəzada qalan aura dayanıqlı sahə yaradır. Bu prosesi ilk dəfə biz aura analitika kimi izah etdikdə maraqlı nəticələr alınır. Məlum olur ki, hər bir söz təkcə təfəkkür modeli deyil, həm də atomar fakt kimi özündən sonra mental sahə yaradan, xüsusi qüvvəyə malik olan təfəkkür aktıdır.

**Üçüncü bölmədə** – "Əbu Turxanın "fikir fəzası" təlimi. Diskursiv və spekulyativ fəlsəfə ilə bədii təfəkkürün sərhədləri" izah olunur.

S.Xəlilovun "Əbu Turxanın "fikir fəzası" təlimi təfəkkürün fəzadakı tsiklik proseslərini izah edən idrak modelidir. Bu metamodel özündə fəlsəfi təfəkkürün fəza qanunlarını ümumiləşdirir və nisbətən daha kiçik olan fəza modellərini özünün altçoxluğu kimi təqdim edir. "Əbu Turxanın "fikir fəzası" təlimində

üç mühüm təfəkkür aktı birləşir. Birincisi, "fikir fəzasının əyilməsi", ikincisi, "fikrin anizotropluğu", üçüncüsü, "fikir axını" (fikrin sürəti). S.Xəlilov yazır ki, birinci halda, bu arqument yalnız bir istiqamətli koordinat sistemlərində özünü doğruldur. Məntiqi təfəkkür istiqamətinin keçid nöqtələri olmadığı üçün onun yalnız izotroplarını yaratmaq olar, heç bir məntiqi təfəkkür digəri ilə kəsişmir. "Əbu Turxanın "fikir fəzası"nda "fikir fəzasının əyilməsi", "fikrin anizotropluğu" və "fikir axını" anlayışları fikrin ölçüsüzlüyünü, asimmetrikliyini və entropiyasını ifadə edir. Əslində bu üç idrakı aktın hər biri ayrı – ayrılıqda təfəkkür modelidir və hər bir mücərrəd anlayışın altında analitik təfəkkürün predmetinə çevrilən əlaqə momenti vardır. "Əbu Turxanın "fikir fəzası" modelinə diskursiv bir təlim kimi yanaşdıqda, bu təlimi açıq sistem kimi izah etmək olar, yəni təlimin sələfləri və xələflərindən danışmaq mümkündür. "Fikir fəzası"nda bütün fəlsəfi modellərdə olduğu kimi izotropluq və anizotropluq ideallaşdırılır. Bu ideallaşdırmada məntiqin izotrop sahələri kimi, qeyri-məntiqin (aloqizmin) anizotrop sahələri də fəlsəfi təfəkkürün strukturuna daxil edilir. Baxmayaraq ki, hər məntiqi model ideal modeldir və hər riyazi məntiq xaosun nizama çevrilməsi prosesidir, S.Xəlilov öz tədqiqlərində məntiqi təfəkkürü birölçülü fəza hadisəsi kimi səciyyələndirir və onların yalnız bir koordinat oxu boyunca modelləşmə imkanını əsas götürür. Müəllif göstərir ki, birölçülü fikir fəzasında həmişə konkret sərhədlər mövcuddur.

"Əbu Turxanın "fikir fəzası" "təlim"i yalnız öz abstrakt məzmununda məntiqidir, digər halların heç birində "fikir fəzası" öz məntiqi ardıcıllığı ilə deyil, yüklənmiş, sıxılmış düşüncənin loqarifmik strukturu ilə işləyir. "Fikir fəzası" məkanca dilin ağırlığı ilə deyil, düşüncənin hüdudsuzluğu ilə xarakterikdir.

**Dördüncü bölmədə** – "Sinkretik və sintetik təfəkkürdə bədiilik" fenomeninin əsas xüsusiyyətləri izah olunur. "Sintetik" və "sinkretik" təfəkkür anlayışlarının ən dolğun izahını İ.Kant öz idrakı modellərində - qnoseoloji (epistemoloji), etik və estetik yanaşmalarında vermişdir. İ.Kant yazırdı ki, nə vaxt metafizika elmə çevrilmək qərarına gəlsə, o hökmən, "Xalis zəkanın tənqidi" ilə bağlı düşüncələri diqqətdən keçirməlidir. Metafizika elmə yalnız

elmi idrak modelləri vasitəsi ilə çevrilə bilər. Fəlsəfi təfəkkürün strukturundakı idrakı modellər süni təfəkkür modelləridir. Onların dərkində heç bir süni vasitə olmasa da, onlar elmin inkişafı vasitəsilə sonradan yarandığı və insanın təbii düşüncələrinə zidd olduğu üçün süni intellekt hesab edilir. Bilik insan varlığının təbii yaşayış şərtinə uyğun olmadığı üçün, onun təfəkkürünü apriori düşüncədən ayırıb aposterioriyə yönəltdiyinə, abstrakt modellərə bağladığına görə insanın fiziki varlığı süni intellektdən asılı vəziyyətə düşür. Lakin müasir dövrdə  analitik zəka ilə meydana çıxan belə süni intellekt növləri elmin inkişafında əvəzsiz rola malikdir. İ.Kant bütün zəka ilə bağlı mühakimələrini "Xalis zəkanın tənqidi"(1781), "Praktiki  zəkanın tənqidi"(1788)  və "Mühakimə qabiliyyətinin tənqidi"(1790) adlı əsərlərində izah etmişdi. İ.Kant bu məntiqi mühakimələri "tənqid" adlandırsa da, əslində bu əsərlərdə nə xalis zəka, nə praktiki zəka, nə də müşahidə qabiliyyətinin yeni məzmunda modelləşdirilməsi tənqid olunmur, İ.Kant koqnitiv təfəkkür modellərinin hər hansı bir versiyada doqmatlaşdırılmasının əleyhinə çıxır. İ.Kant məntiqi mühakimələrə birtərəfli yanaşmaları qəbul etmirdi, analitik və sintetik təfəkkür modellərinin subyektə və predmetə münasibətinin elmi əsaslarını propozisiya kimi izah edərkən o, mühakimələrin məntiqi əsaslarına istinad edirdi. İ.Kant hər cür zəka və idrakı mühakimələri fəlsəfi kateqoriyalardan - tezis, antitezis və sintezdən keçirirdi. İ.Kantın idrakı modellərində bütün mühakimələr iki yerə bölünür: analitik mühakimələr - apriori biliklərdən alınan nəticələr; aposteriori adlanan təcrübədən alınan mühakimələr. İdrakın, əqli mühakimələrin, hökm və predikatların elmi mahiyyətini açan İ.Kant, belə düşünürdü ki, propozisiyaların yaranmasında birinci yerdə apriori biliklərdən yaranan anlayışlar durur.

İlkin sinkretik təfəkkür Şərqin mifik təxəyyülü idi  və zamanın qavranılması üçün insanların istifadə etdiyi obrazlar mifik təfəkkürdə kristallaşmışdı. Mifik təfəkkür qədim yunanlar üçün "funto filo"nun – yəni  zamanın dayanıqlığını ifadə edən mürəkkəb bir məzmunda ümumiləşmişdi. Mifik təfəkkürdə zaman anlayışı olmadığı üçün yunanlar dünyanı "keçmiş", "indi" və "gələcək" zaman anlayışından istifadə etmədən, bütöv bir şəkildə

qavrayırdılar. İnsanın mifik təfəkkürdən qaynaqlanan sinkretik düşüncəsi zamana münasibətlə dəyişdi, zaman bir qavrayış aləti kimi reallaşdı və məkanı da özü ilə bərabər olaraq seqmentarlaşdırdı, lakin təfəkkürdə maddi ilə mənəvi, psixoloji ilə ruhi məzmunun çoxcəhətliyi qorunub saxlandı.

**İkinci fəsil** – **“**Bədii şüurun genezisi, yaxud bədiilik haradan gəlir?” adlanır və fəsil dörd bölmədən ibarətdir.

**Birinci bölmədə** – “Bədiilik fenomeninin tarixi”nə elmi – fəlsəfi ekskurs edilmişdir.

Abstrakt təfəkkür modelləri funksional modellərdir, çünki təfəkkürlə bağlı sahələrin əyani modelini qurmaq çox çətindir. Şüur aktının daxili və xarici fəaliyyətini ifadə etmək üçün müxtəlif təfəkkür modelləri irəli sürülmüşdür. Bir sıra müəlliflərin əsərlərində bədii şüurla bağlı  tədqiqatlar vardır. Məsələn, Q.D.Qaçev, M.Buber, L.A.Zaqs,V.P.Branski, A.N.Malyukov, M.S.Kaqan, O.A.Krivçun, İ A.Y.Zis, V.İ.Tyupanın yaradıcılığında bədii şüurun genezisinə dair müxtəlif analitik yanaşmalar diqqəti cəlb edir. L.A.Zaqsın tədqiqatlarında bədii şüur ümumi şüur aktının xüsusi bir sahəsi kimi tədqiqata cəlb olunur. L.A.Zaqs bədii şüura “vahid ideal kontinuum” kimi aydınlıq gətirir.

Əgər bədiilik reallığı tamamilə əks etdirə bilirsə, yaxud gəlin, şərti başqa cür qoyaq, əgər bədiilik reallığın  özüdürsə, onun inikasıdırsa, bəs nə üçün sənət həyatdan bu qədər fərqlidir, incəsənət həyatı olduğu kimi köçürürsə, niyə sənətdəki həyat bu qədər maraq doğurur? Bəlkə də həyat öz profan məntiqi ilə gündəlik fluktuasiyalarda - qalxma və enmələrində, cari təəssüratlarda əsil mahiyyətini və çalarını itirir və elə buna görə də həyat incəsənət əsərlərində, dramlarda, rəsmlərdə olduğu qədər sevimli deyil. Ədəbiyyata kübar yanaşma tələb edən V. Q. Belinski, ədəbiyyatı, bədiiliyi sözçülükdən çıxarıb ictimai şüura, fəlsəfi düşüncəyə yaxınlaşdırmağa çalışırdı. Fəlsəfə milli, etnik, xəlqi sferaya sığmadığı kimi bədiilik də, daima şəxsi düşüncə hüdudlarını keçməyə can atır. Şəxsi, subyektiv, lokal düşüncə həddini keçməyən əsərdə bədiilik əldə edilə bilmir, çünki bədii obrazda müəllifin fərdi həyata baxışı predmetləşə bilməz. Düşüncə yalnız ümumbəşəri

idealı təcəssüm, insanlığı tərənnüm etdiyi zaman əsər bədii məzmun qazanır.

**İkinci bölmədə** – "Bədii şəkildə qəbuletmənin mexanizmi. Klassisizm ənənələri və bədiilik" adlanan düşüncə sahələrinin mexanizmi açılır və onun əsas cəhətləri izah olunur.

Şüurun ilkin ideyaya münasibəti necədirsə, təfəkkür aktında bədiilik fenomeninin mexanizmi də elədir. Fəlsəfi təfəkkürün bədiilik fenomenindən necə və hansı formada istifadə etməsini aydınlaşdırmaq üçün analitik və sintetik təfəkkür formalarının mahiyyətinə qayıtmaq lazım gəlir. Fəlsəfi təfəkkür ədəbi obrazlardan fərqli olaraq konkretdir, lakin mifik obrazlar kimi zaman və məkanın fövqündədir. "Poetik mətnlərin struktural analiz"ində bədiilik fenomenini fəlsəfi ümumiləşdirmə aktı kimi təqdim edən Y.M. Lotman da, öz analitik yanaşmalarında M.İ Svetayevanın "ikili həyata yetməyir gücüm" ideyasına istinad edirdi. İnsanın, həm maddinin, həm də mənəvinin daşıyıcısı olması, onu təzadların, əksliklərin vəhdətinə çevirir. Lakin ambivalentlik, daxili və xarici, maddi və mənəvi, təcrübi və nəzəri olanların fərqi əslində təfəkkür modellərinin fərqidir.

Təfəkkür aktında bədiiliyin qəbul edilməsi mexanizmini daha dolğun şəkildə Ziqmund Freydin (1856 - 1939) yuxu fenomeni ilə izah etmək olar. Ziqmund Freyd yuxuların mahiyyətini izah edərkən sübut etdi ki, yuxu aktında insan təfəkküründə "ipoxondrik böyütmə" adlanan xüsusi bir proses baş verir. Bu prosesin mahiyyəti ondan ibarətdir ki, dərin yuxu zamanı insan yuxu milində olduğu vaxt, təfəkkür prosesi sanki dayanır və insan təxəyyülü zamanın en kəsiyinə doğru genişlənən sahəyə çıxış əldə edir, yəni təxəyyül genişlənir. "İpoxondrik böyütmə" adlanan bu proses, təfəkkürdəki bədiilik fenomeni ilə analoji bir versiyada gedir. Fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeni və təfəkkür aktında bədiiliyin qəbul edilməsi mexanizmi, intensiya ilə bağlıdır, intensiya özündə təkcə fəlsəfi və poetik fikri deyil, həm də elmi, incəsənəti, ümumiyyətlə, bütün ictimai şüur formalarının təfəkkür imkanlarındakı yönəlişliyini birləşdirir.

**Üçüncü bölmədə** – “Metapsixologiya və yaradıcılıq. İlkin stimul haqqında mülahizələr, yaradıcılığın psixologiyası” izah olunur.

Böyük çin filosofu Konfutsi deyirdi ki, “yaradıcılıq - simvol formalaşdırmaq deməkdir”. Yaradıcılığın mahiyyətini metapsixologiyanın fonunda araşdırmaq, fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeninin yeni cəhətlərini üzə çıxarmaqdır. XIX əsrin sonu, XX əsrin əvvəllərində psixologiyanın ictimai düşüncə sahələri ilə yeni kontaktı, elmi - nəzəri tədqiqatlara təzə bir istiqamət verdi. Metapsixologiyanın fonunda varlıq təlimini yenidən işləmək, bütün ictimai düşüncə sahələrini nəzərdən keçirmək və fərqli şəkildə dəyərləndirmək zərurəti yaranmışdı. Yeni dövrün elmi nəticələri Ziqmund Freydin psixoanalizinin formalaşmasına böyük kömək göstərdi. Ziqmund Freyd 1874–1875-ci illərdə Edmund Qusserlin (1859–1938) sələfi olan və intensionallığı, predmetləşməni psixi fenomenlərin əsas əlaməti hesab edən Avstriya filosofu Frans Brentanonun (1838–1917) “Psixologiya empirik nöqteyi – nəzərdən” adlı əsəri ilə tanış olur. Bu əsərdə Frans Brentano ilə ingilis psixiatrı və Q. Modelinın şüursuzluq problemi və digər psixi aktlarla bağlı mülahizə və mübahisələri ümumiləşdirilmişdi. İlk dəfə bu əsər Ziqmund Freydin düşüncələrində psixologiya ilə fəlsəfəni əlaqələndirdi. Ziqmund Freydin fəlsəfəyə marağı ingilis filosofu C. S. Milin tədqiqatlarından sonra daha da artdı və Ziqmund Freyd bu tədqiqatların üzərində Platonun təlimini mənimsədi.

Leonardo da Vinçinin, U. Şekspirin, F.M.Dostoyevskinin həyat və yaradıcılığını təhlil edərək onların yaradıcılığını sublimatik düşüncələr və “libido” ilə əlaqələndirən Ziqmund Freydin psixoanalizi elm aləmində böyük bir əks –səda yaratdı. Ziqmund Freydin yaradıcılığındakı bir sıra məqamlar onu Fridrix Nitsşe ilə bağlayırdı və yaşadığı zamandan bir qədər geriyə çəkirdi. Freyd öz nitsşeçiliyində təbiət qanunlarını cəmiyyətə tətbiq edir, təbiətlə cəmiyyəti eyniləşdirirdi və bu zaman istər – istəməz əxlaqi dəyərlər, din, bədii yaradıcılıq, sənət insan həyatının epifenomeninə çevrilirdi. Əlbəttə, Freydin psixoanalizi və onun mahiyyətində duran qeyri – şüuri oblastların həlledici, təhrikedici gücünün kəşfi

və bütün təfəkkür aktları üçün onların bazis olaraq qəbul edilməsi faktı, elmdə inqilab idi. Metapsixologiyanın ən böyük xidməti o idi ki, o, qeyri – şüurini, təkcə insanın maddi başlanğıcının deyil, həm də onun mənəvi həyatının, ümumi təfəkkür obrazının əsası ilə əlaqələndirirdi. Freyd sübut edirdi ki, insan təkcə şüuri aktdan, və ya ictimai davranışdan ibarət deyildir, insan, həm də bütövlükdə varlıq fenomeninin, mövcudluq prosesinin mərkəzi qüvvəsidir. Aydındır ki, psixoanalizin banisi elmlə dini birləşdirə bilmədi, çünki o mənəviyyat qanunlarını qəbul etmirdi. Onun elmi düşüncələrinin nəticələrini yalnız empirik fəaliyyəti təsdiq edirdi. O, insanın daxili aləminə hökmranlıq edən yeganə gücü instinktlə əlaqələndirdiyi üçün istinad nöqtəsini insan varlığının ikinci qütbünə keçirtdi. Halbuki insan ictimai varlıq olaraq həmişə mənəvi münasibətlərə və əxlaq qanunlarına möhtacdır.

**Dördüncü bölmədə – "**Geştaltpsixologiyanı doğuran səbəblər sırasında bədii dəyərlərin transformasiyası problemi" açılmışdır.

Geştaltpsixologiyanın meydana çıxması 1912-ci ildə Maks Vertheymerin (1880–1943) Almaniyada məşhur olan psixologiya məktəbinin yaranması ilə başlandı. Bu məktəbin əsas tədqiqatçıları Kurt Koffka (1886 - 1941), Volfqanq Köler (1887- 1967) və Karl Ştumpf (1848-1936) olmuşdur. (Kurt Koffka: «Принципы гештальтпсихологии» (Principles of Gestalt Psychology, 1935) Geştaltpsixologiyanın yaradıcıları idrakın ayrı – ayrı təbəqələrini fəlsəfi təfəkkürə aid etməkdən imtina edir, "ümumi" və "təkcə" anlayışlarına fərqli şəkildə yanaşırdılar. "Geştalt" sözü alman dilində "obraz", "forma", "bütövlük" anlayışlarının müxtəlif versiyalarından əmələ gəlmişdir. XIX əsrdə təfəkkür modellərinin forması və obrazları, əsasən Ziqmund Freydin metapsixologiyada müəyyən etdiyi yeni sublimatik qanunlarla müəyyənləşirdi. Geştaltpsixologiya bu genetik modeli "ümumi" və "təkcə" münasibətlərinin əsas atributu kimi qəbul etdi. Geştaltçılar ilk dəfə təfəkkür aktının bütün elementlərinə vahid bir sistem kimi baxmağa başladılar və bütün idrakı prosesləri bir baxış altına yığaraq onun abstrakt modelini yaratdılar. Ziqmund Freydin metapsixologiyasının fəlsəfi təməlində duran "təkcə"anlayışı,

geştaltpsixologiyada "ümumi"yə tərəf istiqamətləndirildi, təfəkkürdə intensiya, predmetləşmə öz məzmununu, rolunu və yerini dəyişdirdi. Geştaltçılar öz yaradıcılığında heç bir detalizasiyaya yol vermədən insan varlığına münasibət bildirirdilər. Onların əksəriyyəti fəlsəfi psixologiyanın dahisi olan Frans Brentanonun tələbəsi Karl Ştumpfun təsiri altında idilər. Karl Ştumpf musiqi əsərlərində səs tonallığı ilə bağlı tədqiqatlarını "ümumi" və "təkcə" anlayışlarının üzərində izah edirdi və səs tonallığının dəyişməsinin musiqi əsərlərində ümumi fikrin dəyişməsinə təsirini aydınlaşdırırdı. Karl Ştumpf sübut etməyə çalışırdı ki, "bütöv" öz inteqrativ məzmunu ilə sistemin "hissə" mahiyyətindən kənara çıxır. Karl Ştumpfun tədqiqatları geştaltçılara böyük təsir göstərdi. Təfəkkürün funksional modellərində Karl Ştumpf insanın emotiv fəaliyyətində hər iki kateqoriyanı–intellekti və emosiyanı əsas götürürdü, bunlar da fenomenologiyanın və geştaltpsixologiyanın gələcək inkişafında öz sözünü deyə bildi. Aydın oldu ki, "ümumi" və "təkcə" münasibətləri psixoloji məzmun daşıdığı qədər, "ideya və maddi təcəssüm" kontekstində fəlsəfi mahiyyət kəsb edir. Geştaltçılar idrakı aktların bütövlükdə hansı effektə malik olmasını, "təkcə" və "ümumi" anlayışlarının təfəkkürdə hansı formada yerləşməsi ilə müəyyən edirdilər. "Hissə" və "bütöv", "təkcə" və "ümumi" psixoloji sahələrə tətbiq olunmazdan əvvəl təfəkkür aktı kimi izah olunmalı idi. "Ümumi" və "təkcə" təfəkkürdə hansı obrazı və necə yaradır? – sualına cavab axtaran geştaltçılar, "ümumi" üçün abstrakt obraz, yaxud universal bir model tapdılar. Bu Karl Yunqun arxetipi kimi irəli sürülən və "geştalt" adlanan universal bir model idi ki, onun üzərində təfəkkür aktları izah olunmağa başladı. Lakin "ümumi" üçün hazır obraz tapmaq, "ümumi"yə forma vermək psixologiyanın, "ümumi" üçün obraz yaratmaq isə fəlsəfənin işi idi. Alman psixoloji məktəbi təfəkkür obrazlarının qəbul edilməsi mexanizmində yeni bir istiqamət yaratmışdı, geştaltçılar bu istiqaməti elmi və bədii şəkildə əsaslandırdılar. Geştaltçı təfəkkürün mahiyyəti geniş mənada, "tək" və "cəm" obrazlarının qəbul edilməsində həqiqət və illüziyanın sərhədlərini müəyyənləşdirməkdən ibarət oldu.

Geştaltpsixologiyanın yaradıcılarından biri olan Kurt Koffkadan fərqli olaraq, Frans Kafkanın (1883-1924) düşüncələrində geştalt təfəkkürün "qara" fonu daha açıq - aydın nəzərə çarpırdı. Müəllifin bir sıra romanlarında ("Amerika" (1911—1916), "Proses" (1914—1918), "Qəsr" (1921—1922) humanizm və sentimentallıq onu eksiztensializm cərəyanına qoşsa da, əslində Frans Kafkanın yaradıcılığı geştaltpsixologiyanın təsiri ilə yaranmışdı və onun yaradıcı düşüncəsində intensiyanın – yönəlişliyin əsasını dünyaya "ümumi" baxış və öz "şəxsiyyətini diqqətdən qaçırmaq" təşkil edirdi.

**Üçüncü fəsil – "**Fəlsəfi təfəkkür və bədii təxəyyül"adlanır və fəsil üç bölmədən ibarətdir.

**Birinci bölmədə – "**Fəlsəfi ümumiləşdirmələr, bədii yaradıcılıq və modernizm" izah olunur.

Fəlsəfi təfəkkür adi təfəkkürdən öz koqnitiv mahiyyəti ilə seçilir. Fəlsəfi təfəkkürdəki mürəkkəb anlama prosesi dünyanın dərkinə yönəlir. Anlama və dərketmə, analitik, sintetik və sinkretik təfəkkür modellərinin yaratdığı müxtəlif obrazlarda reallaşır. Elmi – fəlsəfi yanaşmalarda analitik və sintetik təfəkkürün məzmunu qeyd olunduğu kimi, Pol Gilfordun (1897–1987) "divergent" və "konvergent", yaxud "ayıran" və "birləşdirən" təfəkkür formaları kimi meydana çıxdı. Lakin bu klassik təfəkkür modeli idi. Müasir fəlsəfi təfəkkürün ontoloji məzmununa təkcə modelləşdirmənin klassik "konvergent" və "divergent" xüsusiyyətləri deyil, həmçinin bədii təxəyyülün, fenomenologiyanın, psixologiyanın və digər ictimai - elmi sahələrin, habelə qeyri – elmi sahələrin ümumiləşdirilmiş məzmunu da daxil edilir. Postmodernizm fəlsəfəsi, məhz bu əsas üzərində formalaşdı. Fəlsəfi təfəkkür gerçəkliyin konkret və mücərrəd, rasional və hissi məzmununu təfəkkür modellərdə müxtəlif şəkildə ümumiləşdirir. Müxtəlif təfəkkür sahələri ümumiləşdirmə prosesi aparır və təfəkkür modelləri bədiilik fenomenindən istifadə edir, lakin bu zaman təfəkkürdəki bədiilik fenomeninə dövrün modern şüuru, ictimai – sosial münasibətlər böyük təsir göstərir. Yəni hər bir dövrüm təfəkkür modeli təfəkkürün bədii məzmununu dəyişir, təfəkkür modelləri getdikcə daha çox öz individuallığını, xronotopluğunun

sekulyar mahiyyətini itirir və kütləviliyə, qlobal məzmuna, mifik təfəkkürə yaxınlaşır. Poststrukturalizm ənənələri təfəkkürün ümumiləşdirmə qabiliyyətinə, onun qavramanı və anlamanı təmin edən ən mühüm əlamətlərinə öz təsirini göstərdi. Halbuki klassik təfəkkür modellərində istənilən obyektin, predmetin dərk edilməsi, həmin obyektin ideal obrazını yaratmaqla həyata keçirilirdi. Təfəkkürdə obyektin, predmetin ilkin modeli onun proobrazının əksi idi.

İ.İ.Qarin fəlsəfi təfəkkürün təxəyyüllə əlaqəsinə xüsusi bir önəm verirdi və yazırdı ki, fəlsəfə varlığa əbədi çağırışdan doğmuşdur, çünki poetik düşüncədən qaynaqlanan sənət nümunələri həmişə özündə fəlsəfi ümumiləşdirməni, fəlsəfi fikirlər, abstrakt yanaşmalar isə özündə sənətin bədiiliyini, ədəbi düşüncənin lirik mahiyyətini ehtiva etmişdir.

V.Q.Belinski fəlsəfəni şüurda olan həqiqət hesab edirdi. Həqiqət axtarışlarında meydana çıxan fəlsəfi konseptlər və fundamental anlayışlar, həmişə abstrakt bir ideyanı sənət nümunəsinə çevirə bilir. Buna görə də sənət yarandığı andan etibarən, həqiqətin izinə düşür, həqiqəti axtarır. Həqiqət sənətdə daxili - mənəvi dialoqlarla, fəlsəfədə fikrin "fəza qanunları" ilə predmetləşir. Qədim Şərqin ilkin hind–ari fəlsəfi təfəkküründə və bütün dari dillərində dil strukturunda sözlər individuallaşmamışdı və təfəkkürdə onların ideal məzmunu yaranmadığı üçün sözlər mənanı təhrif edirdi. Buna görə də Şərq fəlsəfəsində həqiqət axtarışları ezoterik məzmuna malik idi və qapalı xarakter daşıyırdı.

Sənətkar heç bir sosial qurumda təmsil olunmasa belə, o, həmişə daha sosial olan ikiqat ictimai varlıq kimi fəaliyyət göstərir. Çünki onun yaradıcılığında dolayısı ilə olsa da, həmişə ictimai təfəkkürün ümumi mənzərəsi öz əksini tapır. Buna görə də tarixdə bəzi xalqlar üçün bütün ictimai düşüncə sahələrinin ədəbiyyatla bağlı olması faktı səciyyəvidir və bu cür xalqların təfəkkür tərzlərinin formalaşması, onların ədəbi –bədii fikrinin ümumiləşdirmə dərəcəsindən və fəlsəfi nəticələrindən asılı olmuşdur. İctimai düşüncə tərzi siyasi mühitlə və sosial dəyişikliklərlə bağlı olun xalqların təfəkküründə ictimai – sosial mühitdən gələn ümumiləşdirmə qabiliyyəti, təfəkkür modeli,

adətən, öz məntiqi və elmi məzmunu ilə yalnız cəmiyyətin inkişafına, iqtisadi və sosial tələbatların təminatına xidmət edir.

**İkinci bölmədə** – "Sxolastikadan bədii yaradıcılığa doğru təkamül"ün əsas xüsusiyyətləri diqqətə çatdırılır.

Sxolastikadan müasir antroposentrizmə və azad bədii yaradıcılığa doğru cəmiyyət uzun bir inkişaf yolu keçmişdir. Orta əsrlərin feodalizm dövrü, bu gün haqlı olaraq, cəmiyyətin əlində olan bütün maddi və mənəvi dəyərlərin yiyəsi kimi çıxış edir. Çünki tarixin ümumi inkişaf xəttində feodalizm mərhələsi, həm də antik dövrdən intibaha keçidin daşıyıcısı kimi böyük bir rol oynamışdır. Orta əsrlərdə dünyanın təkamül istiqamətini dəyişən islam dini və islam mədəniyyəti ilə yanaşı, Avropanı intibah mədəniyyətinə aparıb çıxaran sxolastika da böyük rol oynamışdır.

Qətiyyətli nəzəri yanaşmalarına, doqmatikliyinə baxmayaraq, sxolastika spekulyativ fəlsəfədən fərqlənir. Sxolastika yalnız analitika və yalnız ekzegeza ilə məşğul olan dar bir dünyagörüşü kimi formalaşmamışdı. Sxolastika özündə dinlə məntiqi düşüncəni birləşdirən, kilsə məktəblərindən, kilsə liturgiyasından, kilsə salnaməçiliyindən universitetə qədər inkişaf edən xüsusi bir təfəkkür tərzi idi. Və bu təfəkkür tərzinin daşıyıcıları, öz teoloji düşüncələrində yunan məntiqinin dini əsaslarını göstərməyə çalışırdılar. Bu ideologiya, orta əsr düşüncəsində Bibliya ekzegezasının və Perlərin tarixinin məntiqi əsasları ilə yanaşı, həm də bədii təfəkkürün inkişaf istiqamətlərini müəyyənləşdirdi. Sxolastik təlim zaman etibarilə üç dövrə bölünür. Əslində bu dövrləşmə feodalizm cəmiyyətinin özünün inkişaf təbəqələri kimi də, biri digərindən zamanca fərqlənir. Erkən sxolastika dövrü adlanan IX – XII əsrlərin ən xarakterik cəhəti ondan ibarət idi ki, bu dövrdə Avropada dini və fəlsəfi görüşlər ən ümumi şəkildə təqdim olunurdu. Hələ fəlsəfi düşüncələr dinin çərçivəsindən kənara çıxa bilmirdi, yəni fəlsəfi görüşlərin əsasında xristian teolojisi dururdu, sosial və mənəvi dəyərlər sistemi universal qanunlardan çıxış edirdi. Sxolastik təlimin ilkin mərhələsində antik mədəni irsə ensiklopetik yanaşmalar əsas rol oynayırdı. Yunan fəlsəfəsinin bütün sahələri metafizika, naturfəlsəfə, məntiq diqqət mərkəzində idi. Sxolastikanın əsil

mahiyyətini Qərbi Avropada Karolinq renessansı ilə təqribən eyni dövrdə yaranan Şərqin "Beyt əl- Hikmə" renessansının müqayisəli təhlilində daha aydın təsəvvür etmək olar. Ərəb Xilafətinin meydana gəlməsi və ərəb işğallarının genişlənməsi, islam dininin məzmununu və siyasi xəritəsini dəyişdirdi. Şərqdə sxolastikanın çiçəklənməsi Ərəb xilafətində Abbasilər sülaləsindən olan Bağdad xəlifəsi Məmunun (813-833) dövrünə təsadüf edir. Məmunun dövründə elmin, maarifin inkişafına xüsusi diqqət yetirilirdi. Xəlifə tarixdə məşhur olan "Hikmətlər evi" ni xüsusi nəzarətdə saxlayırdı, xəlifənin elmə, təhsilə və kitaba marağı onun apardığı dövlət siyasətinin tərkib hissəsi idi və o dövrdə xilafətin tərkibində olan Azərbaycana da şamil edilirdi.

Sxolastikanın ikinci dövrü, əsasən, XIII əsri əhatə edir. Bu, orta əsrlərin "Orta dövrü", yaxud çiçəklənmə dövrü hesab edilir. Bu dövrdə, artıq yunan fəlsəfəsinin, bu gün də dünya fəlsəfi fikrində çözülən fundamental anlayışlarının, fəlsəfi antinomiyaların təfəkkürdə kristallaşması üçün kifayət qədər elm inkişaf etmişdi. Bu dövrün xarakterik xüsusiyyəti U.Okkamın (1285-1349) reduksionizmi üzərində özünün ən yüksək həddinə çatdı. U.Okkamın yeni məntiqi sillogizmi bütün ictimai şüur sahələrinin yeni mərhələdə inkişafına təkan verdi. Sxolastikanın ən qiymətli cəhəti ondan ibarət idi ki, sxolastika U.Okkamın reduksionizmi üzərində qüdrətli elmi - fəlsəfi və mənəvi bir məktəb yarada bilmişdi, özünə qədərki və özündən sonrakı bütün fəlsəfi görüşlərin dini və elmi cəhətlərini izah etmək və kateqorial şəkildə meydana qoymaq üçün bu məktəb misilsiz bir rol oynadı. U.Okkam, əslində teologiyadan fəlsəfəyə keçidin elmi – məntiqi əsasını qoymuşdu. Onun reduksionizminin metodoloji prinsipi, məntiqi bütün elmlərin açarına çevirdi və təfəkkür propozisiyalarının yeni məzmunda kafi əsasının yaranmasının bünövrəsini qoydu. Sxolastikanın ikinci dövrü, nəinki fəlsəfi dünyagörüşün teologiyadan qəti şəkildə ayrılması dövrüdür, həm də fəlsəfədə transsendent varlığın ontoloji məzmununun yaradılması ilə xarakterik olan xüsusi bir mərhələdir. Bu dövr Avropada böyük feodal - zadəgan ordenlərinin - fransiskan, dominikan ordenlərinin dini - fəlsəfi təlimlərinin, həmçinin Böyük Albertin, Foma Akvinskinin, Duns Skotun fəlsəfi sistemlərinin

yaradılması ilə məşhurdur. Sxolastikanın son dövründə (XIV və XV əsrlər) Almaniyada Albert Saksonski, Nikolay Kuzanlı, Fransada Jan Buridan, Nikolay Orezmskiy, İtaliyada Dante və digərlərinin yaradıcılığında, dini dünyagörüşün yeni məzmunu və orta əsrlərin fəlsəfi və bədii fikrinin sintezi əsas yer aldı. Şərq sxolastik təlimləri də yarandığı dövrdə daha elmi və məntiqi xarakter daşıyırdı.

**Üçüncü bölmədə** – "Metrik və topoloji kəsişmə sahələri"nin xronotop məzmunu izah edilir.

Bütün təfəkkür aktları kimi fəlsəfi təfəkkür də, obyektiv gerçəkliyi obrazlarla qavrayır. Lakin digər idrakı aktlardan fərqli olaraq, fəlsəfi təfəkkür zamanın və məkanın abstrakt obrazlarından konkret şəkildə istifadə edir. Elmi – fəlsəfi fikrin tarixində ilk dəfə Q.Leybnits (1646- 1716) və L.Eyler (1707- 1783) zaman və məkan obrazlarının topoloji modelini qəbul etdilər. Onların düşüncəsinə görə fəlsəfi təfəkkür məkan və zamanın sərhədlərinin pozulmasıdır. A.Uaythed metrik və topoloji məkan anlayışları ilə bağlı tədqiqlərində qeyd edirdi ki, zamanın fiziki abstraksiyasının fəlsəfi anlayış kimi izahını birinci dəfə A.Berqson (1859-1941) vermişdir. O A.Berqson zamanı bir –biri ilə xarici əlaqədə olan və eyni cinsli monoton momentlər kimi götürürdü.

Moris Rene Freşe (1878 - 1973) metrik zaman anlayışını yaratdı. Çoxluğun elementlərinin daxili əlaqələrində birləşmələrin növ müxtəlifliyi, forma və ölçülərinin sonsuzluğu metrik düşüncəyə yeni məzmun gətirdi. Hər hansı bir məkan metrik məkandır. Metrik məkanda çoxluğun elementlərinin arasındakı məsafə öz ifadəsini tapır. Məkanın bütövlüyü onun hissələrinin daxili ardıcıllığının bütövlüyünə bərabərdir. Bununla da, təfəkkürdə zamanın və məkanın dərk olunmasına, insanın "məkan" anlayışından istifadə edərkən hansı ölçünü nəzərdə tutmasına aydınlıq gətirildi. İnsan təfəkkürünün zaman və məkanca dünyanı necə qavraması, xronotopluğun, kompaktlığın, dolğunluğun nəyi və hansı miqdarda nəzərdə tutması müəyyənləşdi. Məkanın metrik və topoloji ölçülərini müəyyən etmək Həzrəti – Əlinin "Nəhcül – bəlağə"də ölçü ilə bağlı bir fikrini yada salır. Həzrəti – Əli "Dəvə müharibəsi"ndə sonra tərəddüd içərisində qalan bir adamın ona müraciətinə cavab olaraq deyirdi ki, sən, əslində tərsinə iş görübsən,

sən haqqı adamların miqyası ilə tanımaq istəyirsən, amma əvvəlcə ölçüsüz olanı tanımaq, daha sonra ölçülü olanlar haqqında düşünmək lazımdır. Bu fikir haradasa, İ.Delez və F.Qvattarinin "deterritorializasiya" və "reterritorializasiya" anlayışlarına da uyğun gəlir, çünki sonsuzluq, kəsilməzlik elmi cəhətdən daha böyük anlayışdır. Metrik məkandan fərqli olaraq, topoloji məkan kəsilməz məkandır və sürəkliliklə bağlıdır. Topoloji məkan anlayışını elmə ilk dəfə İohann Listinq (1808-1882) gətirmişdir. Topoloji məkanda məkanı təşkil edən hissələr arasındakı əlaqələr və onların münasibəti metrik məkanda olduğu qədər önəm daşımır. Burada məkanın ümumi tutumu və ümumi istiqaməti əsas götürülür. Buna görə də, topoloji məkan sürəklilik, ardıcıllıq fonunda "homomorfizm"(alt sistemlərin eyniyyəti), "homotopiya" (parametrlərdən asılı olmayan ardıcıllıq) anlayışlarından istifadə edir. Bu anlayışlar məkanın müxtəlif proobrazlarının yaradılması üçün işlədilir. Fəlsəfədə zamanın və məkanın dərkində və onların obrazlarının yaradılmasında metrik və topoloji məkan anlayışları geniş şəkildə tətbiq edilir.

**Dördüncü fəsil – "**Fəlsəfi təfəkkürdə transformasiyalar. Strukturalizmdən postmodernizmə keçid" adlanır və fəsil dörd bölmədən ibarətdir.

**Birinci bölmədə** – "Klassik bədii təsvirin modernizmdə itirilməsi"dir ki, burada ictimai şüur sahəsindəki transformasiyalardan bəhs olunur.

Təfəkkür mürəkkəb bir idrakı prosesdir və bu prosesdə aramsız formada transformasiyalar gedir. Şüur prosesinin transformasiyaları insan idrakındakı fiziki, bioloji çevrilmələrlə bağlıdır. İnsanın baş beynində əmələ gələn dəyişikliklər fiziki və bioloji məzmuna malik olduğu üçün onların təkrarı mümkün deyildir. Baş beynində sol və sağ yarım kürələrin fəaliyyəti biri digərindən fərqlənir. Sol yarımkürə analitik zəkanın fəaliyyətini, sağ yarımkürə isə hissi mental sahə ilə bağlı məsələləri tənzimləyir. İnsanın təfəkküründəki transformasiyalar hər iki sahəyə aid olan fəaliyyət istiqamətini dəyişdirə bilər. Fəlsəfi təfəkkürün transformasiyası sosial, ictimai, elmi və məntiqi sahələrdə özünü göstərir. Bu cür transformasiyalarda analitik zəka sintetik, yaxud

sinkretik təfəkkürlə əvəz olunur. Təfəkkür tiplərinin dəyişməsi fəlsəfi təfəkkürün obrazlarının dəyişməsinə gətirib çıxarır. Fəlsəfi təfəkkürdə baş verən transformasiyaların mahiyyətini "hissi affektiv", "məqsədli", "abstrakt – məntiqi", "ictimai", "individual", "şüurlu", "şüursuz", "ideal", "funksional", "substansional" və digər paradiqmalar müəyyən edir. Eyni zamanda bu paradiqmalar fəlsəfi təfəkkürün struktural məzmununun əsasını təşkil edir. Fəlsəfi təfəkkürün struktural məzmunu, həm də onun elmi – məntiqi məzmunudur. Strukturalizmin modernizmə və postmodernizmə keçid prosesində fəlsəfi təfəkkürün elmi – məntiqi strukturu dəyişdi. Müasir dünyada yaranan fəlsəfi dünyagörüşlər, bədii cərəyanlar, əslində bu transformasiyanın nəticəsi kimi meydana çıxmışdır. Fəlsəfi təfəkkürün transformasiyasında klassik bədii təsvir öz məzmununu itirdi, bədiilik modernizm və postmodernizmdə tamamilə yeni bir məzmunda təqdim olunmağa başladı. Dünyanın müasir mənzərəsi təfəkkürdə məntiqi strukturların dağılması və yeni sintezlərlə xarakterikdir.

Eduard Şüre "Böyük həsrolunmuşlar" adlı əsərində ezoterizmin mahiyyətini təfəkkürdə baş verən transformasiya kimi izah edirdi və göstərirdi ki, ezoterizm, əslində transformasiya yox, insan təfəkkürünün geri qaytarılmasıdır, yaddaşın bərpa olunmasıdır.

Fəlsəfi təfəkkürdəki transformasiyalar strukturalizmin böhranına gətirib çıxartdı. Müasir təfəkkür transformasiyaları poststrukturalist düşüncələrdə bəşəriyyətin canı və qanı hesabına topladığı bilik və bacarıqlardan azad olmaq uğrunda mübarizəyə həsr olundu. Bilik vaxtilə insanın təminatını təşkil etdiyi kimi, indi də sanki insanın qəniminə çevrilmişdir. İnformasiyanın çoxluğu, onun qəbulu, nəqli və emalı üçün bəzən bir insan ömrü yetərli olmur. Buna baxmayaraq, ictimai şüurun inkişaf prosesi dayana bilməz.

**İkinci bölmədə – "**Ekzistensializm və bədii yaradıcılıq" problemlərinin fəlsəfi mahiyyəti açılır.

Ekzistensializm, yaxud ekzistensionalizm (latın dilində exsistensia-varlıq deməkdir) XX əsrdə meydana çıxan fəlsəfi istiqamətdir. Bu fəlsəfi istiqamət sonrakı inkişafını öz yaradıcısı

olan Seren Kerkeqorun (1813-1855) irəli sürdüyü ekzistensionallıqdan tamamilə fərqli bir pozisiyada davam etdirdi. Seren Kerkeqorun yaradıcılığında ekzistensionallıq dini yüksəlişə aparan xüsusi bir yol idi. Fəlsəfənin əsrlər boyu qarşısına qoyduğu suallara Seren Kerkeqor dinin məntiqi ilə cavab verməyə çalışırdı. İ.Kantdan gələn "xalis zəka", yaxud Hegelin "idealist" ənənələri onun yaradıcılığında ekzistensionallığın "təmiz hissi" məzmunu ilə əvəz edildi. Müasir yanaşmalarda bu ideyalar fəlsəfi məntiq, dini substitutu kimi qəbul edilir. Seren Kerkeqor düşünürdü ki, Allahın varlığını yalnız təmiz hisslə qəbul etmək mümkündür. Seren Kerkeqorun düşüncələrində ekzistensionallıq persepsiyaya - hissi qəbul etmə mexanizminə fenomenoloji yanaşma idi. Bu fenomenoloji yanaşmanın hissi obrazyaratma mexanizmi J.P.Sartrda da, eyni formadadır, lakin bu iki dünyagörüş arasındakı fərq ondan ibarətdir ki, J.P.Sartr hissi obrazı şüur obrazı olaraq qəbul edirdi və onun predmetə yönəlişliyini əsas götürürdü. Seren Kerkeqor isə intensiyanın daxili hissi məzmununa deyil, ilahi varlığa bağlılıq üzərində dayanırdı. J.P.Sartrın yaradıcılığında ekzistensializm insanın varlığı ilə bağlı olan mənəvi - daxili təbəddülat kimi verilmişdir. Həmçinin daxili təbəddülatlarda həqiqət axtarışları Seren Kerkeqorun dini dünyagörüşlərindən tamamilə fərqlənirdi. Ekzistensializmin görkəmli nümayəndələri Haydegger, Yaspers (alman məktəbi), Alber Kamyu, Jan Pol Sartr (fransız məktəbi) və digərləri özlərinin bu həqiqət axtarışlarında biri – birindən kəskin şəkildə fərqlənən fikirlər irəli sürürdülər. Seren Kerkeqordan yaradıcılığındakı ümidsizliklə J.P.Sartrın yaradıcılığındakı ümidsizlik tamamilə fərqli bir şəkildədir. Birincisinin, ümidsizliyi məkanla, yoxluqla bağlıdırsa, ikincisinin ümidsizliyi zamanla və varlıqla bağlıdır. Bir fəlsəfi cərəyan kimi ekzistensializm bədii yaradıcılıqda ən dolğun şəkildə J.P.Sartrın əsərlərində öz ifadəsini tapmışdır. Onun əsərlərində bədii yaradıcılığın problemləri daxili – mənəvi kolliziyaları əks etdirir. J.P.Sartr öz fəlsəfi baxışlarında Martin Haydeggerin və Edmund Hüsserlin təsiri altındadır. Lakin onun bədii yaradıcılığı və nəzəri düşüncələri tamamilə orijinal bir şəkildə verilir.

**Üçüncü bölmədə** – “Bədii təxəyyül və fenomenologiya” sahəsinə aid tədqiqatların elmi nəticələri verilir.

Frans Brentanoya (1838-1917) görə fenomenologiya fəlsəfə və psixologiya ilə bağlıdır. Fenomenologiyanın ikili xarakteri onun mahiyyətini mürəkkəbləşdirir, fenomenologiya öz məzmununu fəlsəfə və psixologiya arasında paylaşmaq məcburiyyətindədir. Hegel fenomenologiyanı mütləq ruhla əlaqələndirirdi. Mütləq ruh idrakın və təxəyyülün astanasında şüur və şüursuzluğun arasında iki istiqamətə ayrılmaq məcburiyyətində qalır fenomenologiya hər iki sahədən material götürür. Fenomenologiya ruhun ikiyə bölündüyü yerdə özünə qapansaydı, bəlkə də varlığını itirərdi. Beləliklə, obyektivizmin və subyektivizmin təbəddülatlarında öz fəlsəfi məzmununu əldə edən fenomenologiya, əslində “yoxluğa” və “varlığa” münasibətin ən sadə forması kimi meydana çıxdı. Elə buna görə də fenomenologiya elmi metod kimi E.Hüsserlin psixoloji tədqiqatlarından sonra yarandı. Necə ki, predmetə, əşyaya kənardan və daxili məzmunu baxımından yanaşan İ.Kant “noumen” və “fenomen” anlayışlarını köklü şəkildə əsaslandıra bilmişdi, eyzən də E. Hüsserl, ad və onun məna yükünün fəlsəfə və psixologiyada fərqli məzmunda “noema” və “noezis”də, “real”da və “ideal”da dəqiqləşdirdi. “Predmetə qayıtmaq”, əslində “Hegelə qayıtmaq”- “şüurun morfologiyasına”, “Kanta qayıtmaq” isə “xalis zəkaya” qayıtmaq idi. Lakin Edmund Hüsserl Hegelə və Kanta genetik bir mahiyyətdə “hissiyyat” və “digəri üçün mövcudluq” aktını əlavə etmişdi, başqa sözlə desək, Hüsserl predmetdən kənara çıxıb adın mahiyyətindəki əlaqə momentlərini, ideyanın arxasındakı “intensionallığı” kəşf etmişdi. Bir var ki, hər hansı bir əşyanı onun tanınması üçün sıralanmaq məqsədi simvolik çərçivəyə salmaq, yəni predmetin işarələnməsi (desiqnat), bir də var ki, predmetin daxilindəki məzmunun adda ifadə olunması, yəni adın nəyin isə konkret daşıyıcısı olaraq tanınması, “özlüyündəki şey”in ifadəçisi olması. Predmetin hər hansı bir “özündəki şey”in təqdimatı kimi qəbul edilməsi, onun daşıdığı nominal adla (denotatla) abekvat olmaya da bilər. Və fenomenologiyanın dolaşıq təfərrüatlarının əsası zatən, elə bu fikir üzərində qurulur. Daha doğrusu, söhbət ondan gedir ki, ad predmetin “özlüyündəki şey”in, (hansı ki, bizim

onun görüb dərk etməyimizdən asılı olmayaraq mövcuddur) yalnız mühüm əlamətlərinin konkret daşıyıcısıdırmı, yoxsa ad ifadəsi mümkün olmayan daha əlavə bir şeylərin də mahiyyətini özündə cəmləyir? Hər hansı bir adın öz məzmununun tam ifadəçisi olması üçün şübhəsiz ki, onun bir isim kimi hallanması lazımdır, yəni ad obyektiv gerçəklikdən görünən məzmununu təqdim etmək üçün hal şəkilçilərinin bütün suallarına cavab verməlidir. Lakin məsələ bununla bitmir. Predmetin, əşyanın "özlüyündəki şey"i nə dərəcədə doğru, dürüst, əhatəli təqdim, yaxud təmsil etməsi məsələsi, subyektiv yanaşmanın əhatə dairəsindən də asılıdır. Buna görə də bəşəri məntiq obyektivizmdən kənara çıxan kimi nəyə isə ilişib qalır, düşüncədə dərhal irrasional tərəf işıqlanır və şüursuzluq fenomeninin əksər suallara izahsız cavab tapması, məhz bununla bağlıdır. E. Hüsserlin "intersubyektivizm"inin mahiyyətini təşkil edən, "qeyri -"Mən" adlandırdığı genetik ideal əlaqə, məhz elə bu mərhələdə özünü doğruldur. E.Hüsserl zamana münasibətdə yeni profenomenlərə diqqəti cəlb etdi. O, "müddəti hiss etmək" və "hiss etmənin müddəti", "ardıcıllığı hiss etmək" və "hiss etmənin ardıcıllığı" anlayışlarını varlığın daxilində və xaricində olan fərqli "zaman" kimi təqdim edirdi. E.Hüsserl "hiss etmənin müddəti"ni, "hiss etmənin ardıcıllığı"nı idrakın və təxəyyülün astanasında konkret uzanma müddəti kimi görürdü, amma E.Hüsserldə "sürəklilik" anlayışı yoxdur. S.Xəlilov isə "sürəklilik" anlayışını xronotop məzmundan ayırıb ona ontoloji mahiyyət verdi və göstərdi ki, "davamlı zaman", zaman stixiyasının intensional şəklidir.

**Dördüncü bölmədə – "**İnterpretasiya və yaradıcılıq. Oxucu və müəllif fenomeni" izah olunur.

"İnterpretasiya", "təfsir", "traktovka" və "hermenevtika" sözləri, bəzən dar mənada sinonim kimi də işlənir, hətta onların genezisində "intuitiv bazis" axtarıb tapmaq olar, lakin yenə də bütün hermenevtik anlayışlar arasında mütləq bərabərlik işarəsi qoymaq olmaz. "İnterpretasiya", "təfsir", "traktovka" və "hermenevtika" sözləri ilkin etimologiyasına görə analoji məzmun daşısa da, zaman keçdikcə onların daşıdığı məna dəyişmişdir. "İnterpretasiya", "təfsir", "traktovka" və "hermenevtika" anlayışlarının hər birinin mətnə konkret münasibəti mövcuddur.

Mətnin interpretasiyası, "ekzegetika" adlanan dini təfsir, fəlsəfi mətnin interpretasiyası, mifologika ilə fəlsəfi hermenevtika – bütün bunlar müasir elmi düşüncədə ayrı - ayrı elm sahələrdir. Bizdə fəlsəfi hermenevtika təfsirin yaranma tarixi kimi tədqiq olunmuş və həmin əsas üzərində Şərq və Qərb kontekstində hermenevtik ekskurslar aparılmışdır. Şərq poetikasının tarixi, təfsirin tarixi sırasında, onunla bir kontekstdə izah edilmişdir.

Varlığın ontoloji məzmunu sözün leksik mənasında tamamilə əhatə olunmur, yəni, söz təkcə daşıdığı fikrin maddi yükündən ibarət deyildir. Bu mənada təfsirlə fəlsəfi hermenevtika eyniləşdirilə bilməz. Fəlsəfi hermenevtika dilin bütün semiotik sahələrini əhatə edir, eyni zamanda dilin diskursiv məzmununu təxəyyülün alogik mahiyyəti ilə birləşdirir. Umberto Eko fəlsəfi hermenevtikanı, təkcə "açıq" və "qapalı" strukturlarla məhdudlaşdırmırdı, orada hər cür təfəkkür tərzini, hətta ədəbi fikrin "təfəkkürsüz tərz"ləri də yerləşdirirdi. Umberto Ekonun akademik əsərlərinin demək olar ki, hamısı konkret müəlliflərin interpretasiyasından ibarətdir.

Şərq ədəbiyyatında bu gün də, lirik məzmunlu müxtəlif interpretasiya növləri işlənir. Bu ədəbi interpretasiya növlərinə müxəmməs, təxmis (beşləmə), qəsidə, nəzirə, iqtibas və müsəddəs (təsdis) və s. misal göstərmək olar. Bu ədəbi janrlar Şərq ədəbiyyatı nəzəriyyəsində xalq yaradıcılığı nümunəsi kimi qəbul edilsə də, heç biri interpretasiya kimi tədqiq olunmur, amma bu onların elmi dəyərini azaltmır. Çünki Şərq ictimai şüurunun elmi və məntiqi əsasları həmin bədii nümunələrdə öz əksini tapmışdı. Ədəbiyyat nəzəriyyəsində Qərbdən gələn monten, katren və digər ədəbi və lirik janrlar öyrənilir, onların mətnə münasibəti araşdırılır, lakin Şərq milli düşüncəsi üçün xarakterik olan lirik interpretasiya nümunələrinin elmi - fəlsəfi təhlilləri aparılmır.

Dilin fəlsəfəsini yaradan V.Humboldt, sözün məna qatında varislik prinsipini kəşf etmişdi. V.Humboldta görə hər bir sözdə semantik interpretasiya getdiyi zaman, fikir sözdə təkrar interpretasiyaya məruz qalır və təkrar "refleksiya"- əksolunma prosesi gedir. Fikrin refleksiyası, əslində sözün özünün yaranması,

onun doğuluşudur. Söz özündən əvvəlki fikrin üzərində rekonstruksiyada varisliyə istinad edir.

F.Şleyermaherdən sonra Qadamer, Pol Riker hermenevtikanın interpretasiya ilə bağlı yeni istiqamətlərini müəyyənləşdirdi. Q.Fixtenin, F.D.Şleyermaherin, V.Humboldtun fəlsəfi hermenevtikaya aid olan fikirləri, əslində V.Dilteyin (1833-1911) yaradıcılığında anlamanın psixologiyasını daha aydın başa düşməyə kömək etdi. V.Diltey fikrin ifadə edilməsində formaya böyük önəm verirdi, onun üçün stil interpretasiyada mühüm rola malik idi.

V.Humboldt öz yaradıcılığında semantik etimologiya ilə dilçiliyi birləşdirdi və yeni bir elmi sahəsi olan semantik estetikanı yaratdı. Qərbdə sahədə M.Rizer, F.Menqe, M.Veyç, T.Manronun semantik estetikası yaylmağa başladı və bu sahədə müxtəlif yanaşma tərzlərinin nəticələrini İ.Slavinski öz əsrlərində əks etdirdi. Semantik estetikada İtaliyada Q.Kolodcero, Almaniyada M.Benze məşhurdur. Semantik estetika, əslində təfəkkürdə bədiilik fenomeninin müxtəlif variasiyalarından yaranmışdı.

**Beşinci fəsil** – "Şərq fəlsəfəsində bədii ümumiləşdirmələr" adlanır və fəsil beş bölmədən ibarətdir.

**Birinci bölmədə** – "İslam Şərqində məntiqi və bədii təfəkkür. Bədii ideallarla fəlsəfə arasında keçidlər"in ən ümumi cəhətləri diqqətə çatdırılır.

Bəşəriyyətin Şərq və Qərb bölgüsü yaranana qədər fəlsəfi təfəkkür öz ilkin protoməzmununu yaratmışdı. Fəlsəfi təfəkkür məkanın və zamanın fövqündə yerləşsə də düşüncədəki Şərq və Qərb bölgüsü, zamanı və məkanı maddiləşdirdi. Şərq və Qərb bölgüsü, təkcə coğrafi bölgü deyildir. Qurani –Kərimdə əl- Bəqərə Şərq və Qərb Allahın hökmündə müntəzir olan vahid bir mövqe kimi təfsir olunur: surəsində yzılmışdır ki, Şərq də, Qərb də Allahındır; hansı tərəfə yönəlsəniz (üz tutsanız) Allah oradadır.

Hegel öz Qərb təfəkkürü ilə Şərqə xüsusi diqqət ayırmışdı. Ümumiyyətlə, "Şərq" mövzusu Yeni Dövr Avropası üçün çox maraqlı və diqqətəlayiq bir hadisə idi. Qərb fəlsəfi fikrini inkişaf etdirmək və yeni məzmunlu fikir söyləmək, yeni nə isə demək üçün Avropada, xüsusən, Almaniyada "Şərqi bilmək" ənənəsi çox geniş

yayılmışdı. Bu ənənənin mahiyyəti bizə İohann Goethenin “Şərq divanından”, “Məhəmmədin nəğmələri”ndən, “Min bir gecə” nağıllarının məşhur süjetlərinin Avropada geniş yayılmasından bəllidir. Günəşin doğuluşu və qürubunda iki fərqli dünyanı qovuşduran “əbədi qayıdış” ideyasını axtarıb tapan F.Nitsşeinin yaradıcılığında Şərq və Qərb bölgüsü bəşəri varisliyi təmin edən bir vəsilə idi. Yeni dövrdə Avropada elə bir yaradıcı şəxsiyyət tapmaq mümkün olmazdı ki, o öz yaradıcılığında Şərqə müraciət etməmiş olsun. Şərq Avropanı öz ruhu ilə, şeriyyətinin və müdrikliyinin gücü ilə cəlb edən lirik bir ideal idi. Hegel Misir, Hindistan, İran, Mesopotamiya tarixində Şərq ruhunun təzahür formalarını axtarır və onları öz yaradıcılığında izah edirdi. Misir politeizmi bizə nə qədər mücərrəd görünsə də, əslində bu mistik dünyagörüşləri qədim misirlilərin praktiki həyatından, məhsuldarlıqla bağlı mücərrəd fikirlərindən, say alqoritmlərindən alınmışdı. Misir tanrıçılığındakı dual təsəvvürlər, təkcə ibtidai politeizmi əks etdirmirdi, həm də Misir panteonunda nümayiş etdirilən ikiüzlü obrazlar, öz hermofrodizmi ilə əslində Şərq və Qərb təfəkkürünün ambivalent hisslərindən doğan mifik bir məzmunu ifadə edirdi. Beləliklə, Qərb mədəniyyəti Şərqin əks – sədası kimi yaranmışdır. Hegelin, hətta “gimnosofistlər” adlandırdığı hind “sufizminin” təzahürü də Yunan mədəniyyətində inkarçılıqla tarixə düşən kiniklərdə yenidən təkrarlandı.

İslam fəlsəfə məktəbinin yeni dövrünün tanınmış filosoflarından olan Məhəmməd İqbal, urdu və fars poeziyasının, sufizmin, islam dininin tədqiqlərində maraqlı məqamlara gəlib çatdı. Müasir İslam Şərqinin təfəkkür tərzinin tədqiqində onun araşdırmalarına xüsusi diqqət ayrılır. Şərq fəlsəfəsi Məhəmməd İqbalın yaradıcılığında əsas tədqiqat obyektidir. Məhəmməd İqbal “İslam mədəniyyətinin ruhu” adlı məqaləsində mədəniyyətin inkişafını sufilərin “vəlayət” şüuru ilə deyil, peyğəmbərin “nübuvvət”(peyğəmbərlik) şüuru ilə ərsəyə gəlməsini əsaslandırmağa çalışır.

**İkinci bölmədə – “**Sürətli və sürəkli fikir. Poeziya və fəlsəfə”qarşılığının dual problemləri izah edilir. Koqnitiv dərketmə prosesində müxtəlif təfəkkür modelləri yaranır. Təfəkkürdə sürətli

və sürəkli fikir strukturları modelləşmə prosesinin zaman və məkan əlaqəsinin xüsusi formasıdır. Modelləşmənin sürəti fikrin məzmunundan, onun hansı zaman və məkanda mövcudluğundan asılıdır. “Temporal zaman” və “sürəkli - davamlı zaman” anlayışları düşüncədə fərqli təfəkkür modelləri yaradır. Spontan, bədahətən deyilən şeirdə temporal zamandan, belletrist ədəbiyyatda, təhkiyədə, fəlsəfi mətnlərdə prossesual və davamlı zamanda hiss və duyğular reallaşır. M.Haydegger temporal zamandan bəhs edərkən onu ədəbi fikrin məzmunu ilə bağlayırdı və deyirdi ki, zaman hadisəlidir, hadisə zamanlıdır.

Sürətli fikrin daha geniş təfəkkür imkanına malik olmasını və poeziyanın zamanın və məkanın situativ məzmununa təlqinedicilik qabiliyyətini yüksək qiymətləndirən Jül Renar yazırdı ki, mən nəsrdə şair olmaq istəyirəm. A.Blok (1880-1921) düşünürdü ki, hər bir şairin vəzifəsi fikir stixiyasının sürətini cilovlamaq və harmoniya yaratmaqdır. Poetik mətndə fəlsəfi ümumiləşdirmələr oxucuya temporal zamanla sürəkli zamanın yerini göstərir. Bəzən əsərdə fəlsəfi ricətlər meydana çıxır və onlar təfəkkürün bədii imkanlarını ümumiləşdirir, mətndə əvvəlcə zamana münasibət, daha sonra təfəkkür modelinin ümumi xronotop məzmunu ifadə olunur. Düşüncənin müxtəlif səviyyələrində zamanın sürəkliyi, zamanın ardıcıllığı, yaxud zamanın dayanması ifadə olunur, yəni təfəkkür modelləri müxtəlif zaman kontinuumlarının maddi məzmunda predmetləşməsidir. Mətnin mövzusundan, daşıdığı mənanın məkan müəyyənliyindən asılı olaraq, mətndə zaman modelləri xətti, tsiklik, dalğavari, spiral, ikiqat spirallı, sferik və s. formalarda qurula bilər. Mətnin simvolik məzmununda zaman həmişə laqorifmik, sıxılmış zamandır. Mətndə zaman ölçülərinin sıxılması miqyası kiçiltdiyi qədər, təfəkkür imkanlarını böyüdür. Abstrakt məzmunda fikir sonsuzluğa yaxınlaşır, mətn öz konkret ölçülərində zamanca sonludur və potensiallığa istinad edir. Təfəkkürün struktural modeli lirik təfəkkürdə təkrar bədiiləşmə prosesini keçdikdə, ideyanın ruhi məzmunu məxsusi fenomenə çevrilir. C.X.Cübran deyirdi ki, poeziya-ürəkləri məftun edən müdriklikdir. Müdriklik isə fikir himnini ifa edən poeziyadır. Fəlsəfi poeziyada yalnız hər hansı bir

yaşantının maddi məzmunu ifadə olunmur, çünki hətta, ən sadə münasibətləri ideallaşdırmaq üçün onlardan zaman və məkan sferasına daxil olmaq tələb olunur.

**Üçüncü bölmədə** – "Kütləviləşən mədəniyyətdə strukturalizmin böhranı"nın ictimai şüur sahələrinə necə nüfuz etməsi izah olunmuşdur.

Müasir elmi tədqiqatların təfəkkür modellərinə böyük önəm verməsi, biliklərin bir tərəfdən differensasiyası, digər tərəfdən inteqrasiyasını tələb edir, üçüncü bir tərəfdən isə, davamlı sosial demarkasiyalar cəmiyyəti getdikcə daha çox maddi əsaslardan asılı vəziyyətə salır. Orta əsrlərdə İntibah mədəniyyətinin yüksəlişi, sosial sferanın təbəqələşməsi ilə müşahidə olunurdu. Antik dövrün harmoniyasına və klassik paradiqmalara söykənən ənənəvi mədəniyyətin struktural məzmunu, erkən orta əsrlərin məntiqi və rasional təfəkkürü qarşısında tədricən dağıldı və mahiyyətini itirdi. Ənənəvi mədəniyyətdən elitar və kütləvi mədəniyyət ayrılmağa başladı. Elitar mədəniyyət antik dövrün harmoniyasının və orta cağın struktural məzmununun varisi kimi çıxış edirdi. İntibah mədəniyyətində individualizmin meydana çıxması, əslində özgələşmənin, sosial sferada elitar mədəniyyətin ifadə etdiyi yadlığının nəticəsi idi. Avropada yadlaşma, özgələşmə mövzusu barokko dövrü incəsənətində parlaq şəkildə əks olunurdu. Sonralar bu proses dərinləşdi və kütləvi mədəniyyətin bir sıra yeni cərəyanlarını yaratdı. Bəzən kütləvilik stixiyaya çevriləndə bir sel kimi mədəniyyət üçün fenomenal olan ideal sənət əsərlərini də, qapağına qatıb gətirir. Məsələn, sürrealizmin dahisi olan Salvador Dalinin yaradıcılığı kütləvi mədəniyyətin stixiyasından doğuldu, lakin Salvador Dalinin əsərləri kütləvi düşüncədən kənara çıxan, varlığa münasibətdə yeni bir yanaşma təqdim edən individual sənətdir. Kütləvi mədəniyyət cəmiyyətin iqtisadi tələblərinə cavab verən yeni bir mənəviyyat tipi kimi formalaşdı. Kütləvi mədəniyyətin getdikcə daha böyük iqtisadi məkana malik olması, onun daha geniş auditoriyalara yiyələnməsinə gətirib çıxartdı. Elitar mədəniyyət nə qədər sıxışdırılsa da, öz təsir imkanlarının gücünə və təqdim etdiyi sənətin səviyyəsinə görə varlığını qoruyub saxlayırdı. Tomas Sternz Eliotun (1888-1965) yaradıcılığı bu cəhətdən çox

xarakterikdir. Eliotun yaradıcılığında klassizm və romantizm müasirliklə birləşirdi. Tomas Eliot öz poeziya nümunələrində yüksək ideala sadiq qalırdı, onun poeziyası elitar sənət nümunəsi kimi qəbul olunurdu və buna görə də şair 1948 –ci ildə Nobel mükafatı aldı. “Kütləvi mədəniyyət” anlayışına iki rakursdan yanaşmaq olar: Birincisi, mədəniyyəti dialektik inkişaf qanunlarının təbii nəticəsi olaraq izah etmək. İkincisi, mədəniyyətin kütləviləşməsi ideyanın kütlələrə yiyələnməsinin nəticəsi olaraq izah etmək. Cəmiyyətin inkişafında iki cür tendensiyanın yaranması, “özgələşmə” (отчуждение) adlanan bir prosesi və daha sonra isə “kütləvi mədəniyyət” fenomenini meydana çıxartdı. K. Marks cəmiyyətdə yadlaşmanın ilkin amili kimi ictimai əmək bölgülərinin yaranmasını göstərirdi. O, yazırdı ki, “özgələşmə” dörd fazadan ibarətdir və insanın; a) əmək prosesindən; b) əmək məhsullarından; c) özündən; d) digər insanlardan ayrılmasından sonra “yadlaşma” baş verir. Ziqmund Freydin insanın fəaliyyətində kəşf etdiyi “şüursuzluq” fenomeni cəmiyyətdəki yadlaşma prosesini daha da dərinləşdirdi. Kütləvi mədəniyyətdə insanların bədii idealları deyil, sonralar Karl Yunqun irəli sürdüyü “kollektiv şüursuzluq” fenomeni hakim mövqe tuturdu. Mədəniyyətin kütləviləşməsi, eyni zamanda strukturalizmin böhranı, onun tədricən itirilməsi demək idi. Bütün bunların fonunda kütləvi mədəniyyətin qarşısına yeni bir dünyagörüşü təmsil edən multikulturalizm cərəyanı çıxdı. Milli – mənəvi dəyərlərini qorumaq üçün multikulturalizm cərəyanına qoşulmağa can atan dövlətlərin sayı getdikcə artır. Təsadüfi deyildir ki, multikulturalizm cərəyanının Bakıda keçirilən (05.10.2012- ci ildə) və 70 ölkəni təmsil edən II Beynəlxalq Humanitar Forumunda İlham Əliyev demişdir ki, “Azərbaycan təbii coğrafi körpü olmaqla bərabər, humanitar sahədə də körpü rolunu oynamağa çalışır. Forumun əsas məqsədi bundan ibarətdir”. Bu gün hər bir inkişaf etmiş cəmiyyət kütləvi və elitar mədəniyyətin nisbətini diqqətdə saxlamaq məcburiyyətindədir.

**Dördüncü bölmədə – “**Postmodernizmdə ideya inkarı kontekstində bədiiliyin itirilməsi” və ictimai düşüncədə ideyasızlığın izləri aşkara çıxarılır və ümumiləşdirilir.

Postmodernizm modernizmdən sonra yaranan yeni dünyagörüşləri və həyata baxışları yeni məzmunda birləşdirdi. Əslində postmodernizm, bir növ modernizmin “qalıq effektləri” ilə işləyən təkrar təfəkkür modeli kimi gündəmə gəlmişdi. Postmodernizmin bütün fəaliyyət sahələrində poststrukturalizmin əsas əlamətləri özünü göstərirdi. Poststrukturalizm bəşəriyyətin əsrlər boyu yaratdığı fundamental təfəkkür modellərini və estetik dəyərlər sistemini dekonstruksiya etməyə çalışır və postmodernizmi modern təfəkkür tərzi kimi təqdim edirdi. Lakin postmodernizmin müstəqil bir cərəyana çevrilməsinə mane olan təfəkkür strukturları və estetik dəyərlər sistemi kifayət qədər güclüdür və onların dekonstruksiya edilməsi göründüyü kimi sadə bir iş deyildir. XX əsrin əvvəllərində modernizm, tarixi “qnoseoloqosentrizm”i “antroposentrizmlə” əvəz etməyə çalışırdı. Lakin tarixi “qnoseoloqosentrizm” idrakı məntiqi göylərə qaldırdığı kimi, müasir antroposentrizm “insan” amilinə tamamilə yeni məzmun verməyə çalışırdı. Fridrik Nitsşenin “fövqəl – insan”, Rixard Vaqnerin “təbiət – insan”, Alber Kamyunun “əzabkeş” və digər modern təfəkkür modelləri varlığa yeni münasibətdə birləşirdilər. Modernizmin “simvolizm”, “subyektivizm”, “individualizm”, “immoralizm”, “ekspressionizm”, “kubizm”, “futurizm”, “dadizm”, “sürrealizm”, “abstraksionizm” və digər növləri və çoxlu sayda cərəyanları meydana çıxdı. Modernizmin, həm də öz yeni təfəkkür modellərinin analitiklərini yaratdı.

XX əsrin ikinci yarısından başlayaraq, artıq postmodernizm texnogen cəmiyyəti ideallaşdırmağa başladı. İnsanın “insansızlaşdırılması” («очеловечивание») dövrü başladı. Bu əsas üzərində kütləvi və elitar mədəniyyəti birləşdirmək üçün yollar axtarılırdı. Postmodernizmdə vizual sənət sahələrinin inkişafı ilə yeni plüralist stillər ( video – art, invayroment, installyasiya, perfomens, heppininq) formalaşdı.

**Beşinci bölmədə – “**Müasir Azərbaycan fəlsəfi fikri və bədiilik” diqqətə çatdırılır, burada fəlsəfi fikrin tarixinin xalqımızın milli düşüncəsində necə əks olunduğu izah olunur.

Müasir Azərbaycan fəlsəfəsi, yalnız ümumbəşəri fəlsəfi təfəkkürün tərkib hissəsi kimi tədqiqat obyekti ola bilər.

Azərbaycan fəlsəfi fikri bütövlükdə Şərq təfəkkürünün formalaşmasında böyük rol oynamışdır. Şərq təfəkkür tərzi isə öz növbəsində, tarix boyu Qərb fəlsəfi fikrinin ideya təməli kimi çıxış etmişdir. Şərq təfəkkür tarixini vərəqlədikcə, müasir Qərb düşüncəsinin protoideyalarına rast gəlirik. Bəlli olur ki, təfəkkür tarixinin Şərq və Qərb bölgüsü şərti bir bölgüdür, əslində təsnifatın kateqorial məzmunu sistemin elementlərinə xırdalandıqca, fəlsəfi təfəkkürdə hissələrə bölünmə prosesi, sanki bütöv məzmununun inteqrativ effektini daha da artırmışdır. Metafizik düşüncələr tarixən insanların mistik təfəkkürü ilə bağlı yaranmışdır.

Fəlsəfi fikrin, ədəbi düşüncənin əsas fərqi, məhz zamana münasibətdə meydana çıxır. Azərbaycanın fəlsəfi fikrinin tarixi xalqımızın ümumi tarixinin, milli düşüncə tarixinin bir hissəsidir. Azərbaycanda fəlsəfə tarixi, əsasən orta əsr Azərbaycan fəlsəfi fikrinin tədqiqi ilə məşğul olur. Sovet dövründə Azərbaycanın milli –fəlsəfi fikri sovet ictimai düşüncəsinin təsiri və təzyiqi altında inkişaf edirdi.

Fəlsəfədən tarixə, siyasətə, hüquqa  və digər hər hansı bir ictimai şüur sahəsində keçiddə, əslində insan öz maddi məzmununa qayıtmış olur. İnsan varlığı dərk etmək, yoxluğu anlamaq, keçici və əbədi olanları real olanlardan ayırmaq üçün dünyadan kənara çıxmalıdır. Tarix insana maddi məzmun verir, individuallaşa bilməyən təfəkkür hadisələrin axarına düşüb gedir. Demək, tarix özü də, tamamilə təfəkkür tarixindən ayrıla bilməz, o təkcə və yalnız hadisələri insan düşüncəsindən sıyırıb götürə bilməz. Tarix həmişə canlıdır, o, həmişə öz təhkiyəçi mahiyyəti ilə maraqlı olsa da, məhz zaman məzmunu ilə dolğundur. Hər bir xalqın düşüncə tərzi onun tarixi inkişafının məhsulu kimi meydana çıxır. Zaman və məkan müəyyənliyi əldə etmədən mövcudluq imkanı yoxdur. Necə ki, zaman müəyyənliyi nəsnəyə məkan imkanı qazandırır, eləcə də zaman və məkan materiyada predmetləşir.

Hər bir xalqın səviyyəsini onun  fəlsəfi təfəkkürünün səviyyəsi müəyyən edir. Hər bir xalq yalnız öz məntiqi təfəkkürünün üzərində fəlsəfi sistemini yarada bilər.  Yəni  xalq bir millət olaraq milli fəlsəfi ideya üzərində formalaşır.

Müasir Azərbaycan fəlsəfi fikrində Səlahəddin Xəlilov, Könül Bünyadzadə, Fərman İsmayılov, Aydın Şirinov, Zümrüd Quluzadə, Fuad Qasımzadə, Zakir Məmmədov və digərlərinin yaradıcılığında həqiqət axtarışlarının müxtəlif istiqamətləri öz əksini tapmışdır. Onların hər birinin öz yaradıcılıq yolu, öz tədqiqat sahələri və fərqli düşüncə tərzi vardır. Müasir fəlsəfi fikir Qərbin postmodernizm fəlsəfəsində kütləvi mədəniyyətin elementləri ilə birləşrmişdir. Bu elementlər fəlsəfi fikri mədəniyyətin individuallığı ilə çulğalaşdırır və modern fəlsəfi fikirlər meydana çıxarır.

Əmin ər-Reyhani deyir: "İnsan da mədəniyyət kimidir – inkişafın kulminasiya nöqtəsinə çatar və ondan o yana keçə bilməyib yuvarlanaraq dərəyə - əslinə geri dönür".

**Tədqiqatın nəticəsi**ndə fəlsəfi təfəkkürün strukturunda bədiilik fenomeninin yerini və rolunun müəyyənləşdirməklə biz, bədiilik fenomenini yeni təfəkkür modeli kimi tədqiq edib, onu dilin strukturunda və konseptual sahədə kristallaşan fərqli məzmununu açıb göstərdik. Tədqiqat işi cəmiyyət qanunlarının təfəkkür qanunlarına uyğunlaşdırılması və harmonik bir cəmiyyət yaradılması prosesinin tərkib hissəsi kimi meydana qoyulmuşdur.

– əsərdə ümuminin təkcəyə münasibəti həqiqətin elə çıxış nöqtəsini ifadə edir ki, o, çoxcəhətliyin tamda həllinin müxtəlif variantlarını şərtləndirir.

– əsərdə reallığın elə faktlarına istisna edilir ki, onlar ənənə kimi qəbul olunur və sistemin vahid məzmununa xidmət edir.

– Tədqiqatda dərketmənin xüsusiyyətləri özünü obyektiv qanunauyğunluqların xüsusiyyətləri kimi göstərir. Dərketmənin xüsusiyyətləri ümuminin mövcudluğunun bir formasıdır və ümuminin reprezentasiyası kimi meydana çıxmasıdır;

– əsərdə dərketmənin xüsusi forması, idrakın elmi metodu olan obyektiv həqiqətin təkcənin faktlarında reallaşmasıdır;

– əsərdə dünyanın bədii mənzərəsi dərketmənin hər şeydən əvvəl, anlayışların altçoxluğunu yaratmağa xidmət edir. Bu anlayışlar ontoloji, qnoseoloji, koqnitiv məzmuna malik olub ümumi elmi və fəlsəfi dünyagörüşü ifadə edir;

– elm özündə ictimai şüurun elə səviyyəsini əks etdirir ki, bu səviyyədə təfəkkür modelləri formalaşır. Elmin bu cür təfəkkür

modeli, tədqiqat sahəsinə cəlb etdiyimiz bədii model kimi əsaslandırıla bilər;

– strukturalizm dünyanın elmi və koqnitiv mənzərəsini ifadə edir və hər cür struktural məzmun təfəkkürün bədii modelinin riyazi – məntiqi ifadəsidir;

– M.Fukonun artefaktlara əsaslanan təfəkkür modelində, müasir dünyanın diskursiv məzmunu simvollaşdırılmışdır, bu diskursiv məzmun özündə bədii modelləşdirmənin mahiyyəti əks etdirir;

– X.Q.Qadamer Fridrix Gönderlinnin yaradıcılığını ədəbi düşüncənin yüksək səviyyəsində fəlsəfi ümumiləşdirmə qabiliyyəti kimi tədqiqata cəlb edirdi. Genderlin yaradıcılığını ədəbi kontekstdə izah edən X.Q.Qadamer, ədəbi lirikanı dövrün paradiqması kimi verirdi və bu məzmunda tədqiqat işi fəlsəfi poeziyanın təfəkkür modelinə aydınlıq gətirmişdir;

– fəlsəfi təfəkkürün strukturundakı bədiilik fenomeni müasir yanaşmalarda, xüsusən, postmodernizmin abstrakt modellərində ifadə olunur. Hər cür abstrakt model bədii modeldir və modelləşdirmədə daxili elementlərin asılılıq dərəcəsindən kənarda birləşən və özünü abstrakt vahid kimi göstərən mürəkkəb strukturlar vardır.

## DİSSERTASİYA MÖVZUSUNA DAİR ÇAP OLUNMUŞ ƏSƏRLƏR


1. Bədiilik haradan gəlir və bizim ümummilli portretdə nə çatmır? // Fəlsəfə və sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal № 3 (21) 2008, s. 139-155.
2. Dinin və elmin inteqrativ effekti // AMEA-nın Folklor İnstitutu, Elmi Axtarışlar (Folklorşünaslıq: Filologiya, Fəlsəfə, Tarix, İncəsənət və nəzəriyyə aspektləri), XXXV toplu, Bakı, Nurlan, 2007, s.62-75.
3. Bədii tənqidin fəlsəfi mahiyyəti // AMEA-nın Folklor İnstitutu, Elmi Axtarışlar (Folklorşünaslıq: Filologiya, Fəlsəfə, Tarix, İncəsənət və nəzəriyyə aspektləri), (III/2010), Bakı: Nurlan, 2010, s. 78- 95.
4. Psixoanaliz və bədii yaradıcılıq // Fəlsəfə və sosial-siyasi elmlər. Elmi-nəzəri jurnal, № 2, 2009, s. 89-109.
5. Fəlsəfi təfəkkürün və xronotop düşüncənin Azərbaycan ədəbiyyatı qaynaqlarında təqdimatı //AMEA-nın Folklor İnstitutu. Elmi Axtarışlar (Folklorşünaslıq: Filologiya, Fəlsəfə, Tarix, İncəsənət və nəzəriyyə aspektləri), XXXV, I/2010, Bakı: Nurlan, s.192-210.
6. İslam Şərqində məntiqi və bədii təfəkkür // Azərbaycan Respublikası Təhsil Nazirliyi Naxçıvan Dövlət Universiteti, Elmi Əsərlə,r İctimai elmlər seriyası № 2, Naxçıvan, NDU: Qeyrət, 2011, s.107-112.
7. Beşinci Yevangeliya varmı? Fridrix Nitsşe və nitsşeçilik // Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elm seriyası, №2 "Bakı Universiteti" nəşriyyatı, 2010, s.57- 67.
8. İctimai və fəlsəfi fikir tariximizin antologiyası: Heydər Hüseynov-100 // İctimai və fəlsəfi fikir tariximizinantologiyası. Fəlsəfə və sosial - siyasi elmlər jurnalı № 4(22), 2008, s. 16 -24.
9. Ən Yeni Tarixin dərsləri və sosial dinamikanın qanunları // "Dirçəliş XXI ƏSR" jurnalı, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri, № 126 – 127, 2008, s. 310-327.

10. Fəlsəfə və ədəbiyyatda obraz fenomeni // BDU–nun İlahiyyat fakültəsinin Elmi Məcmuəsi, №16 Dekabr (Aralıq) 2011, s. 213-227.
11. Моральные феномены Насреддина Туси и Рихарда Вагнера. Мысли в литературном и философском контекстах // Религия- наука-общество: проблемы и перспективы взаимодействия. Материалы международной научно-практической конференции. 1-2 ноября 2011 года, Пенза-Липецк-Семей, с. 23-27.
12. Düşüncənin metrik və topoloji kəsişmə sahələri // Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Mədəniyyət dünyası, elmi - nəzəri məcmuə jurnalı. XXII buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2011, s. 72-77.
13. Pietas // Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr elmi konfransı. Tezislər. Qafqaz Universiteti, Bakı 06-07 may, 2010, s. 275- 276.
14. İdrakın və təxəyyülün astanasında fenomenologiya // Fəlsəfə və sosial-siyasi elmlər jurnalı №1(33), Bakı, Azərbaycan Universiteti, 2012, s.21-34.
15. Fəlsəfi esseistika, bədii yaradıcılıq və fenomenologiya // Azərbaycan Respublikası Naxçıvan Universiteti, Elmi Əsərlər İctimai elmlər seriyası № 2, Naxçıvan, NDU: Qeyrət, 2012, s. 83-89.
16. Təfəkkürün spesifikası fonunda lirik fəlsəfə // ADM və İncəsənət Universiteti, Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə jurnalı. XXIV buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2012, s. 46-54.
17. Diskursiv və spekulyativ fəlsəfə Şərq və Qərb kontekstində: fəlsəfi təfəkkürün strukturunda bədiiliyin dil modifikasiyaları // BDU–nun İlahiyyat fakültəsinin Elmi Məcmuəsi, №18 DEKABR(ARALIK), 2012, s.137-149.
18. Ауроаналистический взгляд на художественный фон слова // December 2012, Conference papers, Volume 2, Stuttgart, Germany, 1st İnternational scientifik conference “Eurorean

Applied Sciences:modern approaches in scientific researches” 17-19 th December 2012, p. 92-94.
19. Fəlsəfi təfəkkürün strukturunda bədiilik və kütləvi mədəniyyət // BDU-nun İlahiyyat fakültəsinin Elmi Məcmuəsi, 271 səh. №19 iyun, 2013, s.87-96.
20. A.F.Losevin “Xaos və nizam” əsəri haqqında bəzi qeydlər Fəlsəfi və bədii düşüncə fonunda mülahizələr // Sivilizasiya.Bakı. Avrasiya Elmi-nəzəri jurnal, 2013 №3, s. 51-58 .
21. Kütləvi mədəniyyət və qloballaşma prosesində Şəxsiyyət fenomeni // Heydər Əliyevin Milli dövlətçilik və Milli inkişaf strategiyası Heydər Əliyevin anadan olmasının 90 illiyinə aid Beynəlxalq elmi praktik konfransın materialları, AU-1991, Bakı, 8 İyun, 2013, s. 58-64.
22. Ədəbiyyatda və fəlsəfədə bədiilik fenomeni // Fəlsəfə və sosial-siyasi elmlər, 2013, № 1 , s. 56-77.
23. Elmi, bədii və fəlsəfi düşüncədə ezoterizm // Fəlsəfə və sosial-siyasi elmlər, 2014, №1, s.151-159.
24. Fəlsəfi təfəkkürün strukturunda bədiilik və kütləvi mədəniyyət // ADM və İncəsənət Universiteti, Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə jurnalı. XXV buraxılış, Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2013, s. 125-136.
25. Chronotopic content of the esoterism and the models of thought // "T“Sacred Heart” Milan, Italy In October 1-3, 2014, p. 320-331.
26. FELSEFI VE SANATSAL DÜŞÜNCEDE EZOTERİZMİN KRONOTOPİK İÇERİGİ, TURAN Stratejik Araştırmalar Merkezi SAYI 34, İLKBAHAR-2017. s. 121-126
27. Felsefi Düşüncede Konsept Yaratıcılığının Alanı: Aura Analitik, ARKHE-LOGOS Felsefe Dergisi, Sayı-3 Bahar, 2017 s.151-161
28. Macrocosm, microcosm and a new phenomenological domain of conceptual art. Aura analytics Fenomenologiya. THE Philosophers İNDEX // June 4 - 6, 2015. Harvard University, Cambridge, Massachusetts, USA, p. 356-361.
29. Fəlsəfədə elmilik və bədiilik. Monoqrafiya. Bakı, “ Zərdabi LTD” MMC,2016, 264s.
30. Təfəkkürün poetikası. Monoqrafiya. Bakı, “ Zərdabi Nəşr” MMC,2022, 304s.

Dissertasiyanın müdafiəsi “19” “ may ” 2022-ci il tarixində saat $11^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyasının fəlsəfə elmləri doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən ED 1.33 Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, AZ 1143, Hüseyn Cavid prospekti, 115, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “ 19 aprel ” 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir

Dissertasiya ilə AMEA-nın kitabxanasında tanış olmaq olar.

Çapa imzalanıb: 14.04.2022

Kağızın formatı: A5

Həcm:82358

Tiraj: 100